# QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 136 (6336) 4 avqust 2021-ci il Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## “İnnovativ idarəetmə: Dövlət xidmətlərində rəqəmsallaşma” mövzusunda seminar keçirilib



Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində Azərbaycan...

*Bax 4*

## Böyük Qayıdış Azərbaycan reallıqlarına söykənir




Azərbaycan istər coğrafi relyefi, istər təbiəti, istər tarixi, istər turizmi, istərsə də mədəniyyəti və adət-ənənələri ilə dünya üçün maraqlı, sirli bir ölkə kimi diqqətdə olub. Son illərin...

*Bax 5*

## Xəyanətə insanları nə cəlb edir?



Bəzi insanlar xəyanətə meyil göstərirlər. Buna səbəb nədir? SİA bu barədə paytaxt sakinləri arasında sorğu keçirib. Həmin sorğunu sizə təqdim...

*Bax 9*

# Prezident İlham Əliyev 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib




*Bax 2*

## Aleksey Fenenko: Moskva Paşinyanı heç bir halda dəstəkləməyəcək



*Bax 15*

## Erməni prezident erməni baş nazirə istehza edir?

*Bax 13*

Ötən gündən başlayaraq Ermənistan prezidenti Armen Sarkisyan ölkəyə baş nazir “təyin etdiyi” Nikol Paşinyanın təkliflərini dəstəkləyən və müəyyən vəzifələrə...

## Belaruslu politoloq Ermənistan ictimaiyyətinin adekvatlığına şübhə edir

Belarus prezidenti Aleksandr Lukaşenkonun bu yaxınlarda Minks və Bakı arasındakı dostluq münasibətlərini ən...




*Bax 12*

## Jirinovski həbs təhlükəsi ilə üz-üzə - Ermənistan sülhə məcbur edilir






## Ərdoğan: “Meşə yanğınları ilə əlaqədar göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edirəm”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində baş verən meşə...

*Bax 8*



## Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib

Avqustun 3-də Milli Məclisin növbədənkənar...

*Bax 8*



## Vüqar Rəhimzadə: “Parlament seçkilərinin yenidən keçirilməsi ilə bağlı fikirlər əsassız və qərəzlidir”

“Son günlər Azərbaycanda referendumun keçirilməsi...

*Bax 10*

## Azərbaycan üçün də sınaq məqamı



*Bax 6*

## Əli Kərimlinin AXCP-si yenidən çalxalandı: istefalar start götürür



*Bax 11*

## Rafiq Hüseynov erməniyə qalib gəldi, bürünc medal qazandı!



*Bax 16*

# Prezident İlham Əliyev 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 saylı Bakı “ASAN xidmət” mərkəzinin açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan bu “ASAN xidmət” mərkəzi barədə məlumat verdi.**

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır.

Təsadüfi deyil ki, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir. Dövlətimizin başçısının təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində “ASAN xidmət” mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi və innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanındı.

## “ASAN xidmət” mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi












Məlumat verildi ki, 6 saylı Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir.

Bildirildi ki, hazırda fəaliyyət göstərən 20 “ASAN xidmət” mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk “ASAN xidmət” mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək “ASAN xidmət”ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Prezident İlham Əliyevin ötən ilin dekabrında imzaladığı Fərmanla yaradılan “YAŞAT” Fondunun dəstəyi ilə Vətən müharibəsi qazilərinin sağlamlıqlarının bərpa olunması istiqamətində çox mühüm işlər görülüb. Şəhid ailələri üzvlərinin və yaralıların 1152 müraciəti üzrə 3,8 milyon manat krediti “YAŞAT” Fondu tərəfindən ödənilib. 5667 müraciət üzrə şəhid ailəsi üzvlərinin və yaralı hərbçinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 22,6 milyon manat, bu qəbildən olan 2357 şəxsin tibb və xaricdə təhsil haqlarının ödənilməsi üçün isə 5.6 milyon vəsait ayrılıb. 120 ağır yaralı müalicə üçün Türkiyəyə göndərilib. Onların 64 nəfəri tam sağalıb, 56 nəfər isə hazırda müalicədədir. Bundan başqa, “Onlar bizə əmanət” layihəsi çərçivəsində Vətən müharibəsindən sonra dünyaya gələn 100 şəhid övladına 1000 manat məbləğində maddi yardım olunub, onların adına 5000 manat məbləğində depozit hesab açılıb.

Prezident İlham Əliyevin 2020-ci ilin noyabrında imzaladığı Sərəncama uyğun olaraq yaradılan vahid məlumat bazasında Vətən müharibəsi zamanı mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı ətraflı məlumat yerləşdirilib.

Dövlətimizin başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verildi. Qeyd edək ki, müharibə dövründə ilk yerdə dövlətimizin başçısının tvitləri dayanıb. Bu tvitlərə 396 min baxış olub. #karabakhisazerbaijan həştəqi 800 mindən çox paylaşılmaqla bu mövzuda ən çox paylaşılan həştəq olub. Prezident İlham Əliyevə ASAN sosial innovasiyalar texnoparkı, Görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN ICESCO mükafatı barədə də məlumat verildi.

# Dəmir yumruq, güclü iradə, dəqiq hədəf - Qarabağa Böyük quruculuqla



**Prezident İlham Əliyev:** “Biz bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik”

***Bəli, 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən 8 ay keçməsinə baxmayaraq, bu qısa zamanda ölkəmizin həyatında yeni dövr başlayıb. Və bu gün 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən 8 ay keçməsinə baxmayaraq dövlət başçımızın dediyi kimi: “Bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik”. Bəli, işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesi sürətlə, uğurla dava etməkdədir. Ən əsası isə, xalq görülən işlərin şahidi olur, Qalib Liderimizin gördüyü işləri bəyənir, dəstəkləyir.***



Prezident İlham Əliyev: **“Azad edilmiş ərazilərdə görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir”**








İyulun 22-də Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin qərb bölgəsinə səfəri zamanı Azərbaycan Televiziyasına müsahibəsində ölkə iqtisadiyyatının mövcud durumunu, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə bağlı görülən işləri dəyərləndirən Prezident İlham Əliyev regionlara səfərlərinin müntəzəm olaraq həyata keçirildiyini deyib: “Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə bağlı verdiyim tapşırıqlar yerində də yoxlanılır və son illər ərzində mənim bölgələrə yüzlərlə səfərim olubdur. Bu səfər də bu sıradan olan səfərdir. Səfər zamanı bir neçə açılışda iştirak edəcəyəm. Bu açılışlar, əslində, gördüyümüz işlərin həcmini göstərir. Eyni zamanda, onu göstərir ki, ölkə hərtərəfli inkişaf edir. Çünki bu səfər çərçivəsində həm infrastruktur layihələrinin istismara verilməsi qeyd olunacaq, eyni zamanda, sənaye müəssisələrinin, idman obyektlərinin, yolların, içməli su və kanalizasiya xətlərinin istismara verilməsi nəzərdə tutulur”.

Dövlət başçısı işğal olunmuş ərazilərdə görülən işlər barədə də məlumat verərək deyib: “Biz müntəzəm olaraq Azərbaycan ictimaiyyətini gedən işlərlə bağlı məlumatlandırırıq. Görülən bütün işlər xalq tərəfindən bəyənilir, dəstəklənir. Əlbəttə, o bölgələrdən olan insanlar - keçmiş köçkünlər bu layihələrin icrasında iştirak edirlər, onların rəyi mütləq nəzərə alınır. Müharibədən cəmi 8 ay keçib, amma görün nə qədər böyük işlər görülür. Biz, əlbəttə, ilk növbədə, mina təmizləmə işləri ilə məşğul olmalıydıq və məşğul oluruq”. “Biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda - həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını quracağıq: yeni xətlər, ötürücü xətlər, transformatorlar, yarımstansiyalar, elektrik stansiyaları. Ermənilər tərəfindən dağıdılmış 12 su elektrik stansiyasını ki, Kəlbəcər və Laçın rayonlarında onlara iki həftə möhlət verəndən sonra onları yandırıb dağıtmışdılar. Beləliklə, bu, əsas məsələdir. Çünki bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz”.

Dövlət başçısı yaşıl enerji layihəsi ilə bağlı bildirib ki, artıq bir xarici şirkət tərəfindən maraq göstərilib: “200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığa gəldik. Bu, çox gözəl, önəmli hadisədir. Eyni zamanda, başqa şirkətlər üçün də bu, bir siqnaldır. Mən bilirəm ki, indi dünyanın müxtəlif enerji şirkətləri öz prioriteti üçün bərpaolunan enerjini təsbit ediblər. Biz onları da dəvət edirik, gəlsinlər, investisiya qoysunlar. Bizim şaxələndirilmiş enerji şəbəkəmiz var, bizim bütün qonşu ölkələrlə - Türkiyə, Rusiya, İran, Gürcüstanla yüksək gərginlikli enerji xətlərimiz var. Biz istənilən yerə enerjini ötürə bilərik. Məsələn, biz İrana indi ixrac edirik, Rusiyaya həm ixrac edirik, həm idxal edirik, amma daha çox ixrac edirik. Eyni zamanda, Gürcüstana, Türkiyəyə ixrac edirik. Daxili tələbat artacaq. Ona görə bu sahə xüsusi önəm daşıyır”.

Dövlət başçısı onu da vurğulayıb ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik: “Bütün xərcləri öz hesabımıza edirik, heç bir yerdən bir manat yardım almamışıq. Bəli, xarici şirkətləri biz dəvət etmişik, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən gedir. Dövlət büdcəsi üçün bu, böyük yükdür. Təbiidir, amma biz bunu edirik, edəcəyik. Dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik”.

Prezident İlham Əliyev yol-nəqliyyat infrastrukturunun yaradılması istiqamətində görülən işlər barədə də danışıb. Bildirib ki, enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur: “Burada da 8 ay ərzində görün nə qədər böyük işlər görülüb. Bərdə-Ağdam avtomobil yolu tikilir, Zəfər yoluna, demək olar ki, sentyabr ayında asfalt döşənməsi də başa çatacaq. Zəfər yolu olmayıb heç vaxt. Dərədən, dağlardan, meşələrdən keçən o yol gərək açılaydı, torpaq yol çəkiləydi, ondan sonra asfalt yol. Cəmi 8-9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd yolu çəkilir, 4-6 zolaqlı yoldur. Zəngilan-Qubadlı-Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları - bütün yollar üzrə qızğın iş gedir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bu yol heç vaxt olmayıb, cığır olub. Qış aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Digər yollar, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Çünki orada yol olmayıb, sərhədə gedən istiqamətdə yol olmayıb. Orada qar may ayında əriyib. İndi qış gələnə qədər - qış da oktyabr ayında gələcək, - oktyabr ayına qədər biz orada nə qədər yol çəkməliyik və bunu edirik. Bu, böyükmiqyaslı işdir, mətbuatda çox da işıqlandırılmır. Təbiidir, amma strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyi-nəzərindən bu yolların çox böyük əhəmiyyəti var. Prezident İlham Əliyev, həmçinin infrastruktur layihələri ilə də bağlı məlumat verərək deyib ki, üç aeroport tikilir: “Şəhərsalma ilə bağlı bizim işçilərimiz böyük işlər görür, çox fəal işləyirlər. Ağdamın baş planı təsdiqləndi. Füzulinin, Cəbrayılın baş planlarının ilkin versiyası mənə təqdim edildi. İndi müfəssəl plan üzərində iş aparılır. Yaxın aylarda Füzuli və Cəbrayıl şəhərlərinin baş planı ictimaiyyətə təqdim ediləcək. Zəngilan şəhərinin baş planının hazırlanması prosesinə artıq başlanmışdır. Bir neçə xarici şirkət, tanınmış dünya səviyyəli şirkət öz təklifini verdi. İndi seçim aparılır. Eyni zamanda, əlbəttə ki, Qubadlı da, Laçın və Kəlbəcər də - o şəhərlər də yenidən qurulacaq. Yəni, bu boyda miqyaslı işi cəmi 8 ay ərzində görmək doğrudan da, mən hesab edirəm ki, böyük qəhrəmanlıqdır”.

Bəli, bu gün Cənab Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Və mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz elobalarına geri dönəcəklər. Dövlət başçımızın dediyi kimi: “Biz işğaldan azad edilmiş yerlərdə şəhərlər quracağıq, həyatı qaytaracağıq, bütün dağılmış yerləri bərpa edəcəyik”.

Ermənistan nə qədər təxribat aparsa da, Qalib Liderimiz Prezident İlham Əliyev siyasətinin qətiyyətli və cəsarətli siyasəti nəticəsində Ermənistan reallıqlarla hesablaşmalıdır və istəsə də, istəməsə də yeni reallıqları qəbul etməlidir. Heç vaxt unutmamalıdır ki, dəmir yumruq yerindədir.

***RƏFİQƏ KAMALQIZI***

**Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzində “İnnovativ idarəetmə: Dövlət xidmətlərində rəqəmsallaşma” mövzusunda seminar keçirilib.**





# “İnnovativ idarəetmə: Dövlət xidmətlərində rəqəmsallaşma” mövzusunda seminar keçirilib

Tədbiri giriş sözü ilə açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan “Davamlı İnkişaf Məktəbi” layihəsi gənclərin ictimai-siyasi, sosial-iqtisadi, millimədəni, o cümlədən dövlət idarəçiliyi sahələrində nəzəri və praktiki biliklərinin inkişaf etdirilməsi üçün mühüm proqramdır. B.İslamov qeyd edib ki, əsas məqsəd iştirakçılarla ümumi tanışlıq, onlara proqramın nəzəri və praktiki hissələri, o cümlədən debat, natiqlik təlimləri, təqdimat bacarıqları istiqamətləri üzrə məlumatların verilməsidir. İştirakçılar arasında həm YAP üzvü, həm də bitərəf gənclərin olduğunu vurğulayan B.İslamov bu təşəbbüsün cəmiyyətdə ictimai-siyasi düşüncəsindən asılı olmayaraq bütün gənclər arasında sağlam və dayanıqlı kommunikasiyanın formalaşmasına töhfə verəcəyini deyib.

B.İslamov mövzu ilə bağlı məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxsin direktoru Fariz Cəfərov “İnnovativ idarəetmə: Dövlət xidmətlərində rəqəmsallaşma” mövzusunda çıxış edib. Məlumat verib ki, “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 14 mart tarixli “Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında” Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb: “Mərkəz müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsini təmin edir. Mərkəzin fəaliyyət istiqamətləri başlıca olaraq elektronlaşdırılmış dövlət xidmətləri, e-viza verilməsi və rəqəmsal ödəniş sistemləri üzrə xidmətləri əhatə edir. Qeyd olunan sahələrdə xidmət keyfiyyətinin yüksəldilməsi, xidmətdən yararlanmanın asanlaşdırılması və vətəndaş məmnunluğunun artırılması məqsədilə qabaqcıl beynəlxalq təcrübələr araşdırılıb və vətəndaş ehtiyacları nəzərə alınmaqla innovativ yeniliklər tətbiq olunur.”











F.Cəfərov qeyd edib ki, Mərkəz “myGov”, “e-Gov” elektron hökumət portalları, “ASAN Login”, “ASAN Finans”, “ASAN ödəniş” sistemi, “ASAN Viza”, “e-Agro”, “e-Satınalma”, “e-Lisenziya”, “e-hərrac”, “ADRA İcazələr Sistemi”, “Tikintiyə İcazə Sistemi”, “İcazələrin Alınması və Monitorinqi Sistemi” və quruculuq işləri davam edən digər layihələrinin fəaliyyətini təmin edir: “Elektron Hökumətin İnkişafı Mərkəzi - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində və onun hüdutlarından kənarda yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsinə şərait yaradır. Mərkəzin fəaliyyətinin əsas məqsədi vətəndaşların həyat şəraitini yaxşılaşdırmaq və dövlət xidmətlərinin əlçatanlığını təmin etmək üçün rəqəmsal hökumətə keçid və rəqəmsal texnologiyalardan istifadənin tətbiq edilməsindən ibarətdir.”

Sonda tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# Böyük Qayıdış Azərbaycan reallıqlarına söykənir

**Azərbaycan istər coğrafi relyefi, istər təbiəti, istər tarixi, istər turizmi, istərsə də mədəniyyəti və adət-ənənələri ilə dünya üçün maraqlı, sirli bir ölkə kimi diqqətdə olub. Son illərin ictimai-siyasi hadisələrində də dünyanın nəzəri Azərbaycana yönəlmiş, bu ölkədə baş verən proseslər daim izlənilmiş, müxtəlif fikirlər söylənilmişdir.**






44 günlük Vətən müharibəsinə qədər Ermənistan tərəfindən Azərbaycana qarşı əsassız ərazi iddiasının irəli sürülməsi və zəbt etdikləri ərazilərdə maddi abidələrə qarşı talançılıq siyasətinin yeridilməsi diqqətdən kənarda qalmamış, bununla bağlı dünya mətbuatında kifayət qədər məqalələr, reportajlar dərc olunmuşdur. Bu və digər amillər, əlbəttə ki, beynəlxalq hüquq normalarının kobudcasına pozulması deməkdir. Ermənistan tərəfindən işğal olunmuş ərazilərimizdə təbii ehtiyatların talanması, Qafqaz Albaniyasına məxsus abidələrin və digər milli abidələrimizin məhv edilməsi ətrafında məqalələrin qələmə alınması, deməyə əsas verir ki, dünya, beynəlxalq ictimaiyyəti Azərbaycana qarşı laqeyd münasibətdə olmayıb. Azərbaycanda olan əlverişli təbii şərait, onun sıx meşələri erməni təcavüzkarları tərəfindən talan edilmiş, ekoloji fəlakət yaşanılmışdır.

## ERMƏNİSTANIN TORPAQLARIMIZDA TÖRƏTDİYİ VƏHŞİLİKLƏRİ, BARBARLIĞI DÜNYA İCTİMAİYYƏTİNİN NƏZƏRİNDƏ

Bu gün Azərbaycan öz torpaqlarını işğaldan azad edib. 44 günlük Vətən müharibəsində Zəfər qazanan Azərbaycan bu gün öz torpaqlarına sahibdir. Dünya ölkələrindən gələn nümayəndələr erməni xisləti, barbarlığı ilə yaxından tanış olur və real vəziyyət onların acı təəssüratlarını qələmə almağa, fikirlərini dünya ictmaiyyətinə çatdırmağa vadar edir. Bildiyimiz kimi, dünya ölkələrində olan KİV-lər müharibə dövründə hadisələrin gedişi ilə yaxından tanış oldudar və erməni təcavüzkarlığı ilə bağlı gördükləri bu vəhşiliklərlə bağlı olan düşüncələrini daha da dərinləşdirdi. Bərdə, Gəncə kimi şəhərlərə dinc əhaliyə qarşı vandallıqları hər kəsi hiddətləndirdi. Bu gün Qalib bir dövlətin işğaldan azad olunan torpaqlarına səfər edərək mövcud vəziyyətlə, dağıdılmış və viran qoyulmuş ərazilərimizlə yaxından tanış olurlar. Əlbəttə ki, bu gün Böyük qələbədən sonra işğaldan azad olunuan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Böyük Qayıdış və görülən işlər, icra olunan layihələr də dünyaya Azərbaycanın iqtisadi gücünü, potensialını nümayiş etdirir. Elə İordaniya mətbuatında yer alan məqalə də təəssüratların ifadəsidir. Belə ki, İordaniya mətbuatı akademik Mərvan Sudanın bir qrup xarici jurnalistin işğaldan azad edilmiş ərazilərə səfəri barədə məqaləsini yayıb. “Əl-Ənbat”, “Ağnaden”, “Şaaabnews”, “Cuhayna” informasiya portallarında, həmçinin “Eurasia Diary” saytında yayımlanmış məqalədə İordaniya, İtaliya, İspaniya, Bolqarıstan və Yaponiyadan olan jurnalistlərin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri, minatəmizləmə əməliyyatları, eyni zamanda, Azərbaycan xalqının milli-mədəni irsi ilə tanış olduqları qeyd olunur.

Müəllif diqqətə çatdırır ki, Azərbaycan əsl həqiqətləri -Ermənistanın Qarabağ ərazisini işğal etməsi, bu torpaqlarda törətdiyi vəhşilikləri və barbarlığı, ermənilərin azərbaycanlılara məxsus qədim əraziləri uğursuzluqla nəticələnən özününküləşdirmə siyasətini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə bir çox nüfuzlu jurnalistləri ölkəyə dəvət edib. Uzun illər ərzində güclü dövlətlərin ədaləti bərpa etmək səyləri iflasa uğrasa da, Azərbaycan xalqı Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında və Ordunun qüdrəti sayəsində buna nail ola bildi.

Məqalədə jurnalistlərin Azərbaycanın işğaldan azad edilmiş Füzuli, Cəbrayıl, Ağdam, Şuşa rayonlarında, həmçinin Ermənistanın raket hücumuna məruz qalmış Gəncə şəhərində olması yer alıb. Bu gün işğaldan azad olunan ərazilərində üçrəngli Azərbaycan bayrağı dalğalanır. Media nümayəndələrinə ermənilərin məscidləri və tarixi abidələri dağıtması, qədim Alban abidələrini və kilsələrini öz adlarına çıxması və üzərlərindəki yazıları dəyişdirməsi barədə məlumat da verilib. Azərbaycanın işğal olunmuş ərazilərində erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması “Arxeoloji irsin mühafizəsi haqqında” Avropa Konvensiyasına, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” YUNESKO-nun konvensiyasına ziddir.

Azərbaycana məxsus olan və təbiətin sağlamlığına təsirini göstərən qoruq və yasaqlıqlar erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb. Ermənistan tərəfindən təkcə Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktı ekoloji terroru göstərən dəlildir. Ermənilər təbii ehtiyatlardan, faydalı qazıntı yataqlarından vəhşicəsinə istifadə ediblər. Qeyri-qanuni bir şəkildə Azərbaycan torpaqlarının 20 faizini işğalda saxlayan, ekoloji şəraitin qorunması haqqında beynəlxalq təşkilatlar qarşısında heç bir məsuliyyət daşımayan ermənilər qəsdən ekoloji mühitə zərbə vurublar. İndi bu ərazilərə gələn hər kəsi erməni terroru, vandallığı ilə bağlı mövcud dəlillər əsasında kifayət qədər materiallar əldə edir və dünya mətbuatında buna xüsusi yer ayrılır və manşetlərə çevrilir. Ermənistan ordusunun və erməni terror dəstələrinin törətdikləri vəhşiliklər bu gün dünyaya çatdırılır və dünya həqiqəti bilməlidir.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycan investisiya məkanına çevrilib” - İQTİSADÇI AÇIQLADI



“Avtomobil yollarının bərpası və çəkilməsi ilə bağlı dövlətin ayırdığı maliyyə vəsaiti olduqca önəmli bir amildir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında iqtisadçı-ekspert Aslan Əzimzadə söyləyib. Onun sözlərinə görə, bu ilk növbədə əhalinin yollarla bağlı olan problemini aradan qaldırır: “İkinci tərəfdən bu müəyyən mənada investorlar üçün olduqca önəmli bir məsələdir. Ümumiyyətlə, nəqliyyat və logistika məsələsində yolların çəkilməsinə olduqca önəmlə yanaşırlar. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycan investisya məkanına çevrilib. Xüsusən də Qarabağda yenidənqurma və bərpa işlərinə investisiya axınlarının şahidi oluruq. Təbii ki, Qarabağda da yeni avtomobil yollarının yaradılması və bərpa edilməsi nəqliyyatla bağlı sahənin inkişafına gətirib çıxarır. Bu da öz növbəsində yeni investor axınlarını cəlb edir. İnvestorların bu sahədə Azərbaycana nə qədər imaraq göstərdiyinin şahidi oluruq. Nəticədə investor çox rahat bir şəkildə Azərbaycana investisiya qoya bilir. İnvestisiya cəlb ediciliyinin əsas faktorlarından biri məhz nəqliyyat və logistika məsələsidir.

Qeyd edim ki, bu gün Azərbaycan avtomobil yollarının keyfiyyətli göstəricisinə görə, Dünya İqtisadi Formunun siyahısında 24 və 27-ci yerdədir. Bu da təbii olaraq dövlətin bu sahəyə ayırdığı maliyyənin nə qədər effektiv olduğunu və bu effektivliyin dünya göstəricilərində və hesabatlarında açıq-aydın şəkildə görməyimizə kömək edir. Ümumiyyətlə, regionda nəqliyyat dəhlizlərinin önəmini göstərən başlıca layihələrdən biri Zəngəzur dəhlizi məsələsidir. Bu dəhliz regiondakı bütün ölkələrə yüksək iqtisadi dividentlər gətirəcəkdir. Həm Türkiyə Mərkəzi Asiyaya rahatlıqla məhsullarını göndərəcək və nəqliyyat xərcləri azalacaq, həm də Azərbaycan tranzit ölkə kimi qazanclar əldə edəcək. Hətta Çinin bu layihədə marağı var. Çünki, bu alternativ bir yoldur. Çin Bakı-Tiblisi-Qars istiqamətindən Avropaya məhsullarını göndərir. Digər bir istiqamət Zəngəzur dəhlizi ola bilər ki, Çin artıq məhsullarını effektiv və daha tez şəkildə Avropa çıxaracaq. Bu həm Mərkəzi Asiya ölkələrinə, həm də Avropa ölkələrinə aiddir. Azərbaycan buna hazırlıqlıdır. Çünki Azərbaycanın dünya miqyasında tanınıb. Məhz avtomobil yolların inkişafı və bu yollara ayrılan vəsait olduqca önəmlidir. Regionların bərabər inkişaf etməsində avtomobil yollarının olduqca mühüm önəmi var”.

***Qönçə Quliyeva***

# Azərbaycan və Serbiya əlaqələri dostluq və qarşılıqlı əməkdaşlığa əsaslanır

*İşğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində Serbiya şirkətləri də fəal iştirak edəcək*




Müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olması əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni, siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla Serbiya arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır. İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Bu günlərdə, iyulun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Serbiya Respublikasının xarici işlər naziri Nikola Selakoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi bu əlaqələrin davamlı olduğunu göstərir. Azərbaycan-Serbiya əlaqələri müasir dövrümüzdə uğurla inkişaf edir və bu əlaqələr bütün sahələri əhatə edir. Strateji tərəfdaşlıq zəminində qurulmuş münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlir.Xatıradaq ki, Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında ikitərəfli diplomatik münasibətlər 21 avqust 1997-ci ildə qurulub. 2011-ci il tarixində Azərbaycanın Prezidenti İlham Əliyevin Serbiya Respublikasına rəsmi səfəri olub. Səfər çərçivəsində Serbiyada Azərbaycan səfirliyi açılıb. Azərbaycan hər zaman beynəlxalq təşkilatlarda Serbiyanı dəstəkləyib və ölkələrimizdə səfirliklərin açılması da ikitərəfli əməkdaşlığa öz mühüm töhfələrini verir. 21-22 may 2018-ci il tarixlərində Serbiya Prezidenti Aleksadar Vuçiçinin Azərbaycana rəsmi səfəri məöcud əlaqələrin davamı kimi dəyərləndirilir. 3-6 aprel 2018-ci il tarixlərində isə Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Daha sonra 21-26 oktyabr 2019-cu il tarixlərində Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvitsa Daçiç Azərbaycana işgüzar səfər etmişdir. Dövlətlərarası münasibətlər iqtisadiyyat, enerji sahələrində yeni prespektivlərə yol açmışdır. 2013-cü ildə Azərbaycan və Serbiya arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə, 2018-ci ildə imzalanmış strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planı əhəmiyyət kəsb edir. Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq səviyyəsində olan əlaqələr ildən-ilə genişlənir. Azərbaycan ilə Serbiya arasında bütün sahələri əhatə edən strateji tərəfdaşlığın növbəti müsbət nəticəsi kimi, bu il iki ölkənin ticarət dövriyyəsində 3 dəfəyə yaxın artımın qeydə alınması diqqəti çəkən məqamdır. İkitərəfli əlaqələrin daha da geniş miqyas alması üçün potensial böyükdür. Belə ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsində 6,3% artım qeydə alınıb. Azərbaycan və Serbiyanın işgüzar dairələri arasında əlaqələrin, biznes sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinin də xüsusi önəm kəsb edir.

Onu da vurğulamaq yerinə düşər ki, parlamentlərarası əlaqələr də mövcuddur. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir. Azərbaycan-Serbiya əlaqələrindən söz açarkən Azərbaycan və Serbiyanın şəhərlərində iki ölkənin xalqlarının görkəmli şəxsiyyətlərinin xatirəsinə ucaldılmış abidələri də qeyd etməliyik. Prezident İlham Əliyevin Serbiyaya səfəri zamanı bu ölkədə Ulu Öndər Heydər Əliyevin və böyük bəstəkar Üzeyir Hacıbəylinin abidələri açılıb.2013-cü il fevralın 8-də isə Bakının mərkəzində serb xalqının görkəmli alimi Nikola Teslanın abidəsinin açılışı olub. Abidənin açılış mərasimində çıxış edən Prezident İlham Əliyevin söylədiyi kimi, artıq bu yer Serbiya-Azərbaycan dostluğu parkıdır. Serbiya və Azərbaycan xalqlarının görkəmli nümayəndələrinin şərəfinə həm Serbiyada, həm də Azərbaycanda ucaldılmış abidələr xalqlarımızı, ölkələrimizi daha da sıx birləşdirir. Bu əlamətdar hadisələr Serbiya-Azərbaycan dostluğunun təzahürüdür. Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Bakıda keçiriləcək Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın iclasının əməkdaşlığın genişlənməsi baxımından önəmi diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycanın və Serbiyanın bir-birinin ərazi bütövlüyünü qarşılıqlı şəkildə dəstəklədiyi bildirilib. İqtisadi əməkdaşlıq məsələləri müzakirə olunub. Prezident İlham Əliyev bildirib ki, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və yenidənqurma işlərində dost ölkələrin şirkətləri iştirak edir. Bu baxımdan Serbiya şirkətlərinin gələcəkdə bu işlərdə iştirakının mümkünlüyü bildirilib. Təbii ki, dost ölkələrin şirkətləri kimi, Serbiya şirkətləri də həmin ərazilərdə aparılan yenidənqurma işlərində fəal iştirak edəcək. Bütün bunlar ölkələrarası münasibətlərin dostluq və qarşılıqlı anlaşmaya söykəndiyini göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Zəngilan rayon təşkilatının X hesabat konfransı keçirilib

**Avqustun 3-də Yeni Azərbaycan Partiyası Zəngilan rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib.**

Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Gündəlik təsdiq edildikdən sonra YAP Zəngilan rayon təşkilatının sədri Nizami Mönsümov hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, rayon təşkilatının X hesabat konfransı əvvəlki konfranslardan fərqli əhval-ruhiyyədə keçirilir. Belə ki, 27 illik həsrətdən sonra Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz işğal altında olan torpaqlarımızı, o cümlədən Zəngilanı düşmən tapdağından azad edib. Artıq zəngilanlılar məcburi köçkün deyillər, onlar qısa zamanda doğma yurdlarına qayıdacaqları günü gözləyirlər.









Məruzədə bildirilib ki, rayon təşkilatının 66 ilk ərazi partiya təşkilatında 2316 nəfər üzv birləşir ki, onlardan da 1119 nəfəri qadınlar, 868 nəfəri isə gənclərdən ibarətdir. Ərazi prinsipi ilə yaradılmış bu ilk təşkilatlardan 48-i Bakı, 9-u Sumqayıt, 1-i Şirvan, 5-i Abşeron, 1-i Sabirabad, 2-si Qaradağ rayonu ərazilərində yaradılıb. Ötən konfransdan sonra 419 nəfər rayon sakini partiyaya qəbul edilib. YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti də gənclərdən və ali təhsillilərdən ibarətdir.





Sonra YAP Zəngilan rayon təşkilatı Nəzarət-Təftiş Qrupunun sədri Hidayət Həsənovun məruzəsi dinlənilib.

Müzakirələr zamanı YAP Zəngilan rayon təşkilatı İdarə Heyətinin üzvü, Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov, rayon təşkilatının Şura üzvü, Zəngilan rayon Ağsaqqallar Şurasının sədri Xuduş İsgəndərov, rayon təşkilatının Şura üzvü, ərazi ilk partiya təşkilatının sədri Natiq Quluzadə, partiyanın rayon təşkilatı Qadınlar Şurasının sədri Almaz Osmanova, rayon təşkilatı İdarə Heyətinin üzvü, Zəngilan RİH İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Şənlik Əliyev və rayon təşkilatı İdarə Heyətinin üzvü Həsən Ələkbərov çıxış edərək rayon təşkilatının hesabat dövründəki fəaliyyətinə münasibət bildiriblər.





Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev əvvəlcə 44 günlük Vətən müharibəsi nəticəsində digər rayonlarımız kimi Zəngilanın da işğaldan azad olunması münasibətilə təbriklərini çatdırıb və qeyd edib ki, hazırda azad olunmuş ərazilərimizə insanların qayıdışı üçün dövlət tərəfindən sistemli tədbirlər həyata keçirilir. O belə bir inam ifadə edib ki, YAP Zəngilan rayon təşkilatının da doğma yurda qayıdışdan sonra fəaliyyətində yeni mərhələ başlayacaq.

“Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müstəqilliyinin dönməzliyinin təmin edilməsi, ölkənin tərəqqisi, iqtisadiyyatın yüksəlişi, xalqın rifahının yaxşılaşması, 44 günlük Vətən müharibəsində əldə olunan parlaq qələbə nəticəsində ərazi bütövlüyü təmin olunan Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi naminə ardıcıl siyasət həyata keçirilir. Bu proseslərdə YAP daim ön sırada olub”, - deyən Ə.Tağıyevin sözlərinə görə, YAP üzvləri ölkəmizin daha da güclənməsi naminə partiyamızın Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin ən fəal dəstəkçiləri olmaqla yanaşı, bu siyasətin uğurlarını da xalq arasında geniş təbliğ etməkdədirlər.



Ə.Tağıyev YAP Zəngilan rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Qeyd edək ki, konfransda YAP Zəngilan rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# Azərbaycan üçün də sınaq məqamı



***İsa Həbibbəyli***
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik***

**Qardaş Türkiyədəki meşə yanğınları hər bir azərbaycanlını ürəkdən ağrıdır. Türkiyənin zəngin təbiəti, təbii gözəllikləri, nadir meşə sərvətləri, heyvanlar aləmi od tutub yanır. Qəlbimiz ağrıyır. Azərbaycan xalqı Türkiyə vətəndaşları qədər bu böyük fəlakəti ürək ağrısı ilə qarşılayır. Bütün varlığımızla Türkiyədəki qardaş və bacılarımızın yanında olduğumuzu bildiririk.**

Azərbaycan dövləti qardaş Türkiyənin bu böyük bəladan xilas olması üçün imkanlarında da artıq qüvvə sərf edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbii fəalakətin baş verdiyi ilk anlarda verdiyi bəyanat on milyonluq xalqımızın hər bir vətəndaşının ürək sözlərinin, narahatlıq və həyəcanlarının ifadəsidir. İndi Azərbaycanda bu fəlakətdən narahat olmayan, acı təəssüf və həyəcan keçirməyən vətəndaş yoxdur. Qarabağ müharibəsində olduğu kimi, bu gün də Azərbaycan - Türkiyə, Türkiyə - Azərbaycandır. Təbiətin bu arzuedilməz sınağı Azərbaycanla Türkiyəni bir daha qardaşlaşdırır, birləşdirir. Ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı bir daha özünün varlığını nümayiş etdirir. Türkiyənin meşə yanğınlarından xilas olması, bu böyük fəlakətin aradan qaldırılması Azərbaycan üçün də böyük sınaq və məsuliyyətli bir vəzifədir.

İnanırıq ki, Türkiyəni bürüyən alov söndürüləcək, qardaş türk xalqının başının üstündən duman çəkiləcəkdir. Bu dəhşətli fəlakəti törədən qatillər, namərdlər və xainlər cəzalarına çatacaqlar. Qardaş Türkiyə Azərbaycanla birlikdə bu ağır sınaqdan da çıxacaqdır!

Hər an yanındayıq, Türkiyə!

# “MEDİA Agentliyi bu tip təlimləri sistemli şəkildə quracaq” - MEDİA EKSPERTİ AÇIQLADI



“Azərbaycan Ermənistan ilə münaqişə vəziyyətindədir. Bundan əlavə, Azərbaycanın yerləşdiyi region ümumilikdə münaqişələrlə zəngindir”. Bunu SİA-ya açıqlamasında Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib. Onun sözlərinə görə, jurnalistlərimiz tez-tez münaqişə bölgələrinə səfər edərək, reportajlar hazırlayırlar, münaqişə bölgələrindən operativ xəbərlər verirlər: “44 günlük müharibə də göstərdi ki, düşmən tərəfi heç bir standartı gözləmir, beynəlxalq qanunlara hörmətlə yanaşmır. Beynəlxalq qanunları pozaraq jurnalistləri də atəşə tuturlar. 44 günlük müharibə dövründə AzTV, İTV telekanalarının, digər KİV qurumlarının əməkdaşları dəfələrlə atəş altına salındılar, yaralandılar, xəsarət aldılar. Sonra isə iki həmkarımız - Sirac Abışov və Məhərrəm İbrahimov mina partlayışı qurbanı oldular. Onlar şəhidlik zirvəsinə yüksəldilər. Bu baxımdan Azərbaycan jurnalistlərinin təhlükəsizlik təlimləri keçməsi, təhlükəsizlik qaydalarını bilmələri zəruridir”.

Müşfiq Ələsgərli sözlərinə davam edərək həmçinin qeyd edib ki, jurnalistlər qaynar nöqtələrdən xəbər hazırlamaqla yanaşı, öz təhlükəsizliklərini də qorumağı bacarmalıdırlar: “Təqdiredici haldır ki, MEDİA Agentliyinin və ADA Universitetinin təşkilatçılığı ilə son vaxtlar KİV təmsilçiləri üçün çoxsaylı təlimlər keçirilir. Bu təlimlərin mövzuları müxtəlifdir, Azərbaycan KİV təmsilçilərini dünya media trendləri ilə tanış etmək məqsədi daşıyır. Sonuncu təlimlər isə təhlükəsizlik mövzusuna həsr edilib. Təlimlərin təşkilini təqdir etməklə yanaşı, onların davam etdirilməsini, daha intensiv hal almasını da zəruri sayıram. İnanıram ki, MEDİA Agentliyi KİV-lərin dinamik inkişafına uyğun olaraq, bu tip təlimləri sistemli şəkildə quracaq”.

***Arzu Qurbanzadə***

# YAP Şuşa rayon təşkilatının VI hesabat konfransı keçirilib

**Avqustun 3-də Yeni Azərbaycan Partiyası Şuşa rayon təşkilatının videoformatda VI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**



Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev hesabat məruzəsi ilə çıxış edib. Bildirib ki, YAP Şuşa rayon təşkilatı hesabat dövründə öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, Mərkəzi Aparatın tapşırıq və tövsiyələrinə, eləcə də rayon təşkilatının yarımillik və illik fəaliyyət planlarına uyğun qurmağa çalışıb.



Rayon təşkilatının hesabat dövründə Tədbirlər Planı çərçivəsində həyata keçirdiyi tədbirlərdən bəhs edən T.Əliyev bildirib ki, təşkilatın fəaliyyətinin əsas istiqamətlərindən biri ölkə Prezidenti, YAP Sədri cənab İlham Əliyevin gördüyü işlərin təbliğatı olub: "Cənab Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi bu illər ərzində ulu öndər Heydər Əliyevin ideyalarına və siyasi strategiyasına daim sadiq qalaraq, onları yeni çalarlarla və müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirir. 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsi məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, cəsarəti və siyasi iradəsi sayəsində öz həllini tapıb. Bizə bu günləri yaşadan, tarixi Zəfərimizə imza atan cənab Prezidentə hər zaman minnətdarıq. Hazırda qarşıda dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Qarabağda həyatı dirçəltmək, bərpa etmək kimi mühüm və şərəfli bir vəzifə dayanır. Əminik ki, Qarabağımız cənnətə çevriləcək, soydaşlarımız doğma torpaqlarına qayıdacaqlar".







Sonra Yeni Azərbaycan Partiyası Şuşa rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Namiq Hüseynovun hesabatı dinlənilib. N.Hüseynov qeyd edib ki, rayon təşkilatı 36 ərazi partiya təşkilatında 2365 partiya üzvünü birləşdirir. 2365 partiya üzvünün 1581 nəfərini qadınlar, 784 nəfərini kişilər, 1123 nəfərini isə gənclər təşkil edir.

Müzakirələr zamanı Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov, təşkilatın Qadınlar Şurasının sədri Vüsalə Fətəliyeva, YAP Şuşa rayon təşkilatının sədr müavini, 19 saylı ərazi partiya təşkilatının sədri Rəfael Məmmədov, YAP Şuşa rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Elmir Rzayev hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.





Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev milyonların partiyasına çevrilən Yeni Azərbaycan Partiyasının cəmiyyətdə artan nüfuzundan danışıb. Ə.Tağıyev Qarabağımızın tacı olan Şuşanın işğaldan azad edilməsinin hər bir Azərbaycan vətəndaşında qürur hissi yaratdığını bildirib. Qeyd edib ki, məhz bu səbəbdən YAP Şuşa rayon təşkilatının VI hesabat konfransını yüksək əhval-ruhiyyə ilə keçiririk. Tezliklə soydaşlarımız tarixi torpaqlarına qayıdacaq, Şuşamıza yeni nəfəs gələcək, yeni həyat başlayacaq. Partiyanın Şuşa rayon təşkilatı fəaliyyətini yüksək fəallıqla davam etdirəcək.

Ə.Tağıyev YAP Şuşa rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb.

Konfransda YAP Şuşa rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.



# "Bizə" boş hava" satmaq cəhdləri nəticə verməyəcək" - Rusiya səfiri



Rusiyanın Vaşinqtondakı səfiri Anatolini Antonov ABŞ-ın rus diplomatlarla problemində Rusiyanı niyə günahlandırdığını başa düşmədiklərini ifadə edib. SİA xəbər verir ki, ABŞ Dövlət Departamentinin rəsmisi Ned Prays dünən keçirdiyi mətbuat konfransında mövzu ilə bağlı açıqlama verib. Onun sözlərinə görə, ruslar üçün 3 illik viza müddəti tətbiq olunub: "Burada yeni bir şey yoxdur. Bu insanların viza müddəti bitdikdə ölkəni tərk etmələrini və ya uzadılması üçün müraciət etmələrini gözləyirik".

Praysın sözlərini qarşılığında şərh edən Antonov bildirib ki, Rusiya tərəfi ev sahibi ölkənin təyin etdiyi qaydalara ciddi şəkildə riayət edir: "Sənədləri əvvəlcədən Xarici İşlər Nazirliyinə göndərir, lakin heç bir cavab almır. Hazırda Rusiya səfirliyinin təxminən 60 əməkdaşı Vaşinqtonun qərarını nəzərdən keçirir. Bəziləri hətta 2020-ci ilin may ayından bəri gözləyir. Buna cavab olaraq, bu günə qədər yalnız Rusiya səfirinin müşavirinin vizası uzadılıb. Birləşmiş Ştatlar bu tədbiri böyük bir güzəşt olaraq görür, amma Moskva bunu qəbul etmir. Bizə boş vədlər vermək məsələni həll etmir və biz bununla razı deylik. Bu səbəbdən ABŞ diplomatik nümayəndəliklərinin problemlərini həll etmək üçün ABŞ Dövlət Departamentindən konstruktiv yanaşma gözləyirik".

Antonov eyni zamanda qeyd edib ki, ABŞ-ın rus diplomatlarının ölkədə qalma müddətinə üç illik məhdudiyyət qoyulması və 24 səfirlik işçisinə ölkəni tərk etmək barədə israrlı bildirişləri ABŞ hökumətinin Rusiya diplomatik varlığına əlavə zərbə vurmaq istəyi olduğunu bildirib.

***Qönçə Quliyeva***

# Vətəndaş-məmur münasibətləri necə olmalıdır?



"İlk növbədə onu qeyd etmək lazımdır ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev dəfələrlə qeyd etmişdir ki, xalqın bir nömrəli xidmətçisi elə mən özüməm. Əslində bu sözlərin özü birbaşa bütövlükdə dövlət məmuruna bir mesajdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib. Onun sözlərinə görə, məmurlar, ictimai-siyasi xadimlər vətəndaşları dinləməli, onların müraciətlərinə həssaslıqla yanaşılmalı və onlara edilən müraciətlərin həlli yolunda addımlar atılmalı, vətəndaş-məmur yaxınlığını təmir etməlidir: "Bu eyni zamanda hər birimizin qarşısında bir tələbdir ki, insanlarla, vətəndaşlarla maraqlanmaq, onların arasında olmaq və vətəndaş-məmur münasibətlərini daha da yaxınlaşdıraq. Cəmiyyətin istənilən təbəqəsində bu gün də qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bilməyən, o cümlədən də tutduğu vəzifədən sui-istifadə edənlər və vəzifəsindən şəxsi mənafeyinə xidmət edənlər də var. Amma bunu bütövlükdə məmur ordusuna aid etmək olmaz. Çünki Azərbaycanda həyata keçirilən islahatlar, o cümlədən də kadr islahatları onu göstərir ki, kadrlar çox şeyi həll edir. Kadrlar xüsusilə son dövrdə cənab Prezident tərəfindən aparılan islahatlar bunun bariz nümunəsidir. Bu o demək deyil ki, məhz vətəndaşlarla münasibətlərin tənzimlənməsi və onlarla münasibətlərin düzgün qurulması prosesi məhz qanunlarla həyata keçirilməlidir".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, istər dövlət məmuru olsun, istərsə də ictimai-siyasi xadimlər bütövlükdə sadə vətəndaşlara nümunə olmalıdırlar: "Amma yolunu azmış, vəzifəsindən sui-istifadə edənlərə qarşı da əlbəttə ölkəmizdə cənab Prezidentin tapşırığı əsasında onlara qarşı mübarizə aparılır. Məmur vətəndaşlarla münasibətləri tənzimləyə bilməyən, qarşıya qoyulan vətəndaş-məmur münasibətlərinə vəzifəsindən sui-istifadə edərək xələl gətirən insanlarla mübarizə aparılır. Azərbaycan hüquqi dövlətdir və hüquq çərçivəsində onlara qarşı intizam tədbirləri görülür və ya digər tədbirlər həyata keçirilir. Cənab Prezident bütövlükdə məmur ordusu qarşısında, ictimai-siyasi xadimlər qarşısında bu məsələlərlə bağlı dəfələrlə öz xəbərdarlığını edib və buna qarşı da ölkəmizdə mübarizə aparılır".

***Arzu Qurbanzadə***

# Ərdoğan: "Meşə yanğınları ilə əlaqədar göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkür edirəm"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində baş verən meşə yanğınları ilə mübarizədə onlara dəstək verən bütün ölkələrə və təşkilatlara təşəkkürünü bildirib.**

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, sosial media hesabı vasitəsilə fikirlərini ifadə edən Prezident Ərdoğan deyib: "Türkiyədəki meşə yanğınları ilə mübarizəmizə dəstək verən, başsağlığı göndərən, kömək etməyə hazır olduqlarını bildirən və yardım göndərən bütün dost ölkələrə və təşkilatlara millətim adından təşəkkür edirəm".



Bu çətin dövrü ən qısa zamanda geridə qoyacaqlarını bildirən Rəcəb Tayyib Ərdoğan bildirib: "İlk andan etibarən göstərdikləri dəstəyə görə xüsusilə Azərbaycan Prezidentinə, əziz dostum İlham Əliyevə, Rusiya Prezidenti Vladimir Putinə və İspaniyanın Baş naziri Pedro Sançesə ölkəm adından təşəkkürümü bildirirəm. Güclü həmrəyliyinə görə qonşumuz İran Prezidenti İbrahim Rəisiyə, Qətər Əmiri Şeyx Təmimə, Xorvatiya Prezidenti Zoran Milanoviçə və Ukrayna Prezidenti Vladimir Zelenskiyə təşəkkürümü bildirirəm".

# Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib

**Avqustun 3-də Milli Məclisin növbədənkənar sessiyasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Milli Məclisin sədri bildirib ki, Azərbaycan Respublikası Konstitusiyasının 90-cı maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş prokuroru iyulun 30-da Milli Məclisə təqdimatla müraciət edib. Təqdimatda parlamentin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi xahiş olunur.

Milli Məclisin daxili Nizamnaməsinin 22-ci maddəsinin birinci hissəsinə görə, Baş prokurorun təqdimatına parlamentdə 7 gün müddətində baxılmalıdır. Odur ki, Milli Məclisin 53 deputatının tələbi ilə bugünkü növbədənkənar sessiya çağırılıb.

Sonra iclasda çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bildirib ki, onun tərəfindən Milli Məclisə 55 saylı Xaçmaz şəhər seçki dairəsi üzrə parlamentin deputatı Eldəniz Səlimovun deputat toxunulmazlığına xitam verilməsi barədə təqdimat ünvanlanıb. Təqdimatın ünvanlanması üçün kifayət qədər əsas mövcuddur. Dünən təqdimata Milli Məclisin İntizam komissiyasında baxılıb və müvafiq rəy verilib.

Baş prokuror bildirib ki, Milli Məclisin deputatı Eldəniz Səlimovla bağlı material Baş Prokurorluqda araşdırılıb və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb, istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb. Hazırda iş üzrə intensiv istintaq hərəkətləri aparılır. İstintaq hərəkətlərinin aparılması üçün Eldəniz Səlimovun toxunulmazlığına xitam verilməsi zəruridir.



İclasda çıxış edən Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov komissiyanın rəyini diqqətə çatdırıb. Komissiyanın rəyində deyilir ki, Milli Məclisin deputatı Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi üçün kifayət qədər əsas var və məsələ Milli Məclisin plenar iclasının müzakirəsinə çıxarıla bilər.

İclasda çıxış edən Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, komitə sədrləri Musa Quliyev, Zahid Oruc, Tahir Rzayev, Bəxtiyar Əliyev, deputatlardan Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Erkin Qədirli, Tahir Kərimli, Aydın Mirzəzadə, Razi Nurullayev, İlham Məmmədov, Hikmət Məmmədov, Fəzail Ağamalı və Sabir Rüstəmxanlı gündəlikdəki məsələ barədə fikirlərini bildiriblər. Diqqətə çatdırılıb ki, VI çağırış Milli Məclis fəaliyyətə başladığı gündən indiyədək Sahibə Qafarovanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərib, pandemiya dövrü olmasına baxmayaraq, mühüm qərar və qanunlar qəbul edib, 44 günlük Vətən müharibəsi zamanı üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib. Qeyd olunub ki, VI çağırış Milli Məclis Vətən müharibəsindəki möhtəşəm Qələbəmizə şahidlik etmiş parlamentdir.

Sonra çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, sualları cavablandırıb.

İclasa yekun vuran Sahibə Qafarova bildirib ki, Milli Məclisin deputatı olmaq yüksək şərəfdir, xüsusən də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kimi müdrik siyasi və dövlət xadiminin rəhbərlik etdiyi ölkədə deputat olmaq daha böyük şərəf, həm də etimaddır.

Milli Məclisin sədri vurğulayıb ki, Prezident İlham Əliyev xalqımızı Vətən müharibəsində qələbəyə çatdırmış bir Liderdir. Onun rəhbərliyi ilə Azərbaycan Respublikası indiyədək möhtəşəm inkişaf yolu keçib, həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edib, bundan sonra daha böyük uğurlara imza atacaqdır.

S.Qafarova qeyd edib ki, 2020-ci il martın 10-da Altıncı çağırış Milli Məclisin birinci iclasında dövlətimizin başçısının etdiyi proqram xarakterli çıxış hamımızın yadındadır. Dövlətimizin başçısı parlamentin fəaliyyətinin necə qurulması ilə bağlı tövsiyələrini söyləmiş, eyni zamanda, Milli Məclisin üzvləri qarşısında qoyulan tələbləri də göstərmişdi. Prezident İlham Əliyev demişdi: "Yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar, görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni, onların arxasında, necə deyərlər, heç bir mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər".

Sahibə Qafarova diqqətə çatdırıb ki, ötən bir il yarıma yaxın dövrdə biz birlikdə parlamentin fəaliyyətini dövlət başçısının çıxışında irəli sürülmüş tövsiyələr əsasında qurmağa çalışmışıq. Milli Məclis Prezident İlham Əliyevin həyata keçirdiyi əsaslı islahatların ön sırasında olan dövlət qurumlarından birinə çevrilib.

Hər birimiz yaxşı başa düşməliyik ki, qanunvericilik orqanının üzvü, deputat olmaq həm də ciddi məsuliyyət deməkdir. Deputatın qəbul olunmuş qanunlara, icra orqanlarının qərarlarına necə əməl etməsi onun həm siyasi və ictimai xadim, həm də xalqın diqqət mərkəzində olan bir insan kimi yetkinliyini göstərir. Deputat özünü heç kəsdən üstün tutmamalı, danışığı, rəftarı ilə başqalarına nümunə olmalıdır.

Milli Məclisin sədri deputatın bu ada yaraşmayan hərəkəti ilə əlaqədar dərin təəssüfünü bildirib. Diqqətə çatdırıb ki, məsələnin müzakirəsi göstərdi ki, Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi barədə Baş prokurorun təqdimatında kifayət qədər əsaslar vardır. İntizam komissiyasının rəyi də bunu göstərdi.

Sonra deputat Eldəniz Adil oğlu Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında Milli Məclisin qərar layihəsi səsə qoyularaq təsdiqlənib.

Sahibə Qafarova Milli Məclisin növbədənkənar sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Bununla da Milli Məclisin növbədənkənar sessiyasının iclası başa çatıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# "Dəlini" kim danışdırır: Putin, yoxsa erməni diasporu?

**Bəri başdan deyirəm: Vladimir Putinin dəli Jirinovski kimi siyasi çərənçinin "dili ilə" kiməsə söz çatdırması, eyham vurması barədə deyilənlər uşaq ədəbiyyatından başqa bir şey deyil. Qeyri-ciddi və siyasi baxımdan kökdən düşmüş, üfunət iyi verən beləsi artıq Kremldə ancaq tualet qabına atılır, vəssalam. Çünki Balacaboy Kreml sahibi sözünü kimə necə deməyi və necə "çatdırmağı" əla bilir. Keçmiş KQB generalı belə işlərin ustasıdır. Elə ustadır ki, ABŞ-dakı seçkilərə "əl uzadan" kimi, Konqresə soxulan amerikalılar bir-birini güllələdilər...**

Nə isə gələk mətləbə. Bəri başdan deyim ki, artıq Rusiya barədə yazanda, bu nəhənglikdə dövlətin ruh xəstələrinin və hazırkı bürokrat məmur təbəqəsinin əsirliyində inildədiyini qeyd etməsəm günah olar. Həqiqət yazılanda gözəldir, yazılan həqiqət də əbədi hörmətə layiqdir. Həqiqət də budur ki, hazırda Rusiya ağır və çarəsiz xəstəlikdən əli üzülmüş ümidsiz xəstəni xatırladır. Çünki indi Rusiya hazırkı böhranın pik həddindədir. Rus xalqı kriminal məmur ordusunun, məhv olmuş milli iqtisadiyyatın, müstəqil düşüncənin və ruslara məxsus açıq fikirliliyin şəxsi yaltaqlıqla əvəzləndiyi acı tablosuna baxıb, yanıb-yaxılır.

Böyük Rusiya... puşkinlərin, lermantovların, dostoyevskilərin, lev tolstoyların vətənində Vladimir Jirinovski, Andrey Savalyov kimi ruh xəstələri və şəxsi yaltaqlar at oynadır. Bu sadaladıqlarım Rusiyanın hazırkı acı tablosudur, sevsən də, sevməsən də, bu, acı həqiqətdir. Həmişə demişəm, yenə də təkrar edirəm: Vladimir Putindən sonra Rusiyanı çox ağır, çox sancılı dövr gözləyir. Varis-maris planlarından asılı olmayaraq, V.Putinin bütün rıçaqları Kremldən qopan kimi Rusiya sancılı dönəmə girəcək. Çünki V.Putinin hakimiyyəti dövründə itirilmiş cəmiyyəti, iqtisadiyyatı, rus düşüncəsini geri qaytarmaq üçün Rusiyaya azı yüz il lazımdır. Bu, sadəcə qaçılmazdır, acı həqiqətdir, vəssalam!.

Düzdür, həqiqət budur ki, V.Putin, doxsanıncı illərin sonunda araq içməkdən ağlını itirmiş Borus Yeltsinin qətiyyətsizliyi ucbatından Rusiyanın parçalanmaqla üz-üzə qaldığı vaxtlarda, "dəmir yumruqla" nəhəng dövləti parçalanmaqdan və dağılmaqdan qurtardı, burası belədir.

Amma... amma əvəzində Rusiyada mövcud olan azad mətbuatın, az-çox ayaq üstündə duran milli iqtisadiyyatın, hələ sovetdən qalma yaradıcı oksigenlə nəfəs alan nəhəng Rusiya ədəbiyyatının "fatihəsini" oxuyub külünü də Sankt Peterburqdakı Neva çayına atdı, vəssalam...

İndi gələk uzun illərdir rəzil günə qalmış Rusiya siyasətində faşist və ruhi xəstə rolunu oynayan, amma əsl məqsədi pul-para müqabilində istənilən çərənləmə ilə məşğul olan, "pulunu ver, kimi istəyirsən söydür" ayaması qazanmış dəli Jirinovskinin Azərbaycan əleyhinə son çərənləməsinə. Yaxşı yadımdadır, 5-6 il bundan əvvəl Bakıya gələn, burada "bəh-bəhlə" qarşılanıb bələğətli çıxışlar edən, sonra Moskva telekanallarında Lənkəran, Masallı, Şəki, turizm bölgələrimiz barədə ağız dolusu danışan dəlisov "Jirik", çox keçmədi yenə əleyhimizə çərənləməyə başladı. Bunun siması, bunun yaşayışı budur, vəssalam. Pulunu ver, nə desən edəcək.

Bunu əlində saxlamaq üçün gərək murdar boğazını hər gün dollarla "yağlayasan". Bunun "çörəyi" bu işdən çıxır və zaman-zaman çərənləmə tonunu daha yuxarılara da yüksəldir. Bəs bu qeyri-ciddi siyasi çərənçinin sifarişçisi kimdir?- hə, bax, əsl məsələ də budur.

İndi bir çoxları iddia edir ki, Kreml açıq şəkildə deyə bilmədiklərini və açıq müstəviyə çıxara bilmədiklərini bu siyasi meymunun dili ilə ortaya qoyur. Məncə, artıq bu, fiaskoya uğramış metoddur və yuxarıda da qeyd etdiyim ki, Kreml sahibinin qeyri-ciddi şəxs kimi tanınan belə siyasi xəstələrə ehtiyacı qalmayıb. Ciddi siyasətdən danışırıqsa, bu tam belədir. Jirinovskinin son çərənləməsinin yeganə səbəbi Moskvadakı erməni diasporunun yenidən V.Jirinovskini ortaya atması və çirkin şəkildə anti-Azərbaycan təbliğatına başlamasıdır. Moskvadakı ermənilər Rusiya ictimai rəyinə belə "ağır toplarla" həmlə edir və Azərbaycanı bu siyasi kuklaların dili ilə "vururlar". Xüsusilə son Qarabağ müharibəsindən sonra sarsılan və dağınıq halda olan Rusiyadakı erməni diasporu, özünü toparlamaq üçün V.Jirinovskini ortaya atıb. Müharibədəki uğursuz erməniləri möhkəm yandırıb və indi əks hücum üçün belə siyasi it-küçükdən yararlanmağa çalışırlar. Burası açıq-aşkar belədir. Amma bizim də bu baş verənlərdən alacağımız çox dərslər var. Belə siyasi sarsaqları Bakıda bəh-bəhlə qarşılamaq, BELƏLƏRİNİN QARŞISINA XALI SƏRMƏK ADƏTİNƏ SON QOYUN, YETƏR!

# YAP Qubadlı rayon təşkilatının IX hesabat konfransı keçirilib



**Avqustun 3-də Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatının videoformatda IX hesabat konfransı keçirilib. SİA-nın məlumatına görə, əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Gündəlik təsdiq edildikdən sonra YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev hesabat məruzəsi ilə çıxış edib.

Məruzədə bildirilib ki, hesabat dövründə rayon təşkilatında görülmüş bütün işlər Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi, partiyamızın Sədri cənab İlham Əliyevin nitq və çıxışlarından



irəli gələn vəzifələr, eləcədə, partiyanın Mərkəzi Aparatının tövsiyyə və tapşırıqları yüksək keyfiyyətlə həyata keçirilib.

Rayonumuzun əhalisi 38 min 616 nəfərdir. Onlar respublikamızın 41 şəhər və rayonlarında məskunlaşıblar. Hazırda partiyanın rayon təşkilatında 83 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir. Üzvlərimizin sayı 3613 nəfərdir. Onlardan 1555 nəfəri kişilər, 2058 nəfəri isə qadınlardır. Partiya üzvlərimizin 1825 nəfərini gənclər təşkil edir. 320 nəfər isə ötən konfransdan sonra partiyaya üzv qəbul edilib.

A.Haxverdiyev qeyd edib ki, ötən 5 il siyasi baxımdan ölkəmiz üçün əlamətdar bir tarix kimi də yadda qalmışdır: "Belə ki, ölkəmizdə bu illər ərzində Prezident, Par-



lament, Bələdiyyə və Partiyamızın 6 və 7-ci qurultayı keçirilib. Əvvəlki seçkilərdə olduğu kimi bu seçkilərdə də rayon təşkilatı qarşıya qoyulan məqsədlərə çatmaq üçün ardıcıl iş apararaq müsbət nəticələ-



rin əldə edilməsinə nail olub".

Sonra Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Sahib Əliyevin hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP Qubadlı rayon təşkilatının Şura üzvü, Qubadlı Rayon İcra hakimiyyətinin başçısı Malik İsaqov, YAP Qubadlı rayon təşkilatı Gənclər Birliyinin sədri Ülvi Qasımlı, rayon təşkilatının Şura üzvü, Xıdırlı kənd tam orta məktəbin ilk partiya təşkilatının sədri Savalan İmanov, Kavdadıq kənd



tam orta məktəbinin ilk partiya təşkilatının sədri Alimə Bayramova, Əməkdar məşqiçi, Uşaq-Gənclər idman məktəbinin müəllimi Cavanşir Əliyev, Rayon Təhsil şöbəsi ilk partiya təşkilatının sədri Nərmin Musayeva çıxış edərək rayon təşkilatının hesabat dövrü ərzində gördüyü işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi fəaliyyət göstərdiyi 29 ilə yaxın dövr ərzində bütün qüvvə və bacarığını dövlətə, xalqa xidmətə yönəldərək mühüm uğurlara imza atıb. Gələcəyə doğru inamla irəliləyən YAP cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha da qüdrətlənməsi istiqamətində ciddi səylər göstərir. Azərbaycanın hər bir uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seç-



kilərdə qələbə qazanması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə, partiyanın gələcəyinə böyük inama əsaslanır.

Ə.Tağıyev YAP Qubadlı rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP



Qubadlı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

---

# Xəyanətə insanları nə cəlb edir?

Sorğu



**Bəzi insanlar xəyanətə meyil göstərirlər. Buna səbəb nədir? SİA bu barədə paytaxt sakinləri arasında sorğu keçirib. Həmin sorğunu sizə təqdim edirik:**

<u>Paytaxt sakini Leyla Əliyeva:</u> - Bu sevginin çoxluğunda ola bilər. Hər şeyin artığı



zərərli olduğu kimi, servginin də artığı zərərli ola bilər. Hər iki nəfər bir-birinə çox güvənir və hesab edir ki, xəyanət eləsəm də, onsuz da məni bağışlayacaq. Ona görə də, belə bir arxayınlıq yaranır, gedir, xəyanət edir.

<u>Paytaxt sakini Elnar Məmmədli:</u> - Yəqin istədiklərini ala bilmirlər. Ruslarda belə bir söz var, deyir, "Əgər, mən özüm onun tələblərini ödəyirəmsə, o gedib başqa kişilərdən nəysə tələb edib axtarmaz. Əgər sağa-sola gedirsə, deməli onun tələblərini kişi yaxşı ödəyə bilməyib.



<u>Paytaxt sakini Şahin Rzayev:</u> - Çünki iradə yoxdur. Sevdiyin insana gərək iradənlə cavab verəsən. Bu olmadıqda gedib xəyanət edirlər. Həm də deyirlər ki, hər şey zamandan asılıdır. Ancaq bu belə deyil. Qadınlara üz tutub demək istəyirəm ki, sevdiyiniz kişiyə həqiqət, sevmədiyiniz kişiyə yalan olmayın.



<u>Paytaxt sakini Gülnarə Heydərli:</u> - Ailədə səmimiyyət yaxşı şeydir. Səmimiyyət olmadıqda əlaqələr də yaxşı olmur. Bir-birinə qarşı inam, güvən olmayanda xəyanət də olur.



<u>Paytaxt sakini Əziz Əzizov:</u> - Bir-birinə bağlı olmurlar. Ailələrinə dəyər vermirlər. Buna görə də, gedib başqa kişiylə xəyanət edirlər. Kişilərdə isə artıq həvəs var. Həvəslərinə məğlub olub, gedib xəyanət edirlər.



<u>Paytaxt sakini Qumral Əliyeva:</u> - Xəyanət, məncə, xarakterlə bağlı bir şeydir. Xarakteri zəif olan kişi və qadınlar xəyanət yolunu tuturlar.



<u>Paytaxt sakini Toğrul Məhərrəmov:</u> - Məncə səbəb birbirlərini sevməməsi ola bilər. Yaxud da heyvani instiktərinə məğlub olmaqları ucbatından xəyanət edirlər. Yəni bunun başqa açıqlaması məncə, yoxdur.



<u>Paytaxt sakini Fatimə Həzili:</u> - Bu haqda fikirlər təbii ki, müxtəlifdir. Mən öz fikrimi deyirəm ki, bir nəfər sevib, bir tərəf sevməyəndə sevən tərəf xəyanətə məruz qala bilər.



***Turqay Musayev***

ANALİTİK-AKTUAL

# Parlament niyə buraxılmamalıdır?

*Yaxud, uğursuzların əlinə düşən "ideya" girəvəsi*

**Ölkəmizdə qanunların aliliyi hər kəsə aiddir və bu aliliyin sübutu bütün mənalarda özünü sübuta yetirməkdədir. Bu mənada, Eldəniz Səlimov adlı deputatın (yazı hazırlanarkən, Milli Məclisdə onun toxunulmazlığının aradan qaldırılması ilə bağlı iclas keçirilirdi) ətrafında mövcud olan hadisələr fonunda məhz müxalifət cinahından olan əsassız tələblər ümumiyyətlə, hər hansı bir məntiqə sığmayan bir haldır.**



Yəni, hazırkı dövrə qədər istər Milli Məclisin nizam-intizam komissiyasında, istərsə də bütövlükdə parlamentdə təmsil olunmalarına baxmayaraq, qanunsuzluqlara yol verən deputatlar barəsində ciddi tədbirlər görülüb. Bu hadisə də eyni məzmundadır və Eldəniz Səlimovun qanunsuz hərəkətləri istər cəmiyyətdə, istərsə də parlamentdə sərt şəkildə qınanılıb və qınanılır. Lakin...

### Bir şəxsin suçu üzərindən bütöv bir parlamentin buraxılması kimi mənasız tələbin irəli sürülməsi dünyada analoqu olmayan bir haldır

Lakin özlərini müxalifət adlandıran bir bəlli qrupun dərhal "parlament buraxılmalıdır", "referendum keçirilməlidir" tipli səs-küy qaldırmaları artıq belə deməyə zəmin yaradır ki, bir şəxsin suçu üzərindən bütöv bir parlamentin buraxılması kimi mənasız tələbin irəli sürülməsi dünyada analoqu olmayan bir haldır. Yəni bu günə qədər heç bir parlament hər hansı bir deputatın qanunsuz əməlinə görə buraxılmayıb və referendum keçirilərək yeni parlament tərkibi müəyyənləşdirilməyib.

Parlament o zaman buraxılır və yenidən referendum vasitəsi ilə müəyyən edilir ki, bu qanunverici orqan öz işinin öhdəsindən gələ bilməsin, müvafiq tələblərə uyğun fəaliyyət göstərmək imkanları məhdud olsun. Xalqın, seçicilərin maraqlarından çıxış etməsin və s.

### Məgər bu addımın özü demokratik mühitin, eyni zamanda, şəffaflığın göstəricisi hesab edilə bilməzmi?

Öncəki parlamentin fəaliyyətinə nəzər salarkən, onun buraxılaraq növbədənkənar seçkilərin keçirilməsi vasitəsi ilə tərkibinin yeniləşməsini buna sübut kimi göstərə bilərik. Özü də bunu xalq deyil, məhz əvvəlki parlamentin deputatları tələb etmişdilər. Məgər bu addımın özü demokratik mühitin, eyni zamanda şəffaflığın göstəricisi hesab edilə bilməzmi? Yeni parlamentə səs çoxluğu qazanan namizədlər düşdülər, fəaliyyətlərində səmərə olmayan şəxslər isə deputat kürsüsündən kənarda qaldılar.

İndi bəlli qrupların ortalığa çıxmaqla və əhəmiyyətsiz bir mövzunu gündəmə gətirməklə suyu bulandırmaq cəhdləri arxasındakı məqsədləri də, əslində, aydındır - Qərbdəki havadarlarının bu məsələdən verdikləri sifarişlərini icra etmək, sabitliyi pozmağa yönəlmiş istənilən qarayaxma addımlarını atmaq və s. Özü də postmüharibə dövründəki həssas bir məqamda. Bu gün dövlətin və xalqın daha vacib işləri var - azad edilmiş torpaqların dirçəldilməsi, qayıdış planlarının icrası, yerdə qalan problemlərin həlli və daha nələr və nələr..! O cümlədən, bu gün Azərbaycan parlamentinin də sözügedən siyasətin həyata keçirilməsində mühüm yeri və rolu mövcuddur. Bir çox xarici ölkə parlament nümayəndələrinin Azərbaycana dəvət olunmaları, işğaldan azad edilmiş torpaqlarımıza edilən səfərlər, həmçinin, ölkəmizin maraqlarının xarici ölkələrin ali qanunverici orqanları səviyyəsində təbliği. Bu kimi siyahıları uzatmaq da olar. Ancaq qanunların tələblərini kobudluqla pozan, deputatlıq mandatından sui-istifadə edən bir şəxsin - Eldəniz Səlimovun səhvi üzündən bütöv bir parlamentin buraxılmaqla referenduma verilməsi absurddur!

### Torpaqlarımızın işğala məruz qaldığı dönəmlərdə kürsü davası döyən, siqareti-siqaretə calayaraq oranı gecə barına çevirən həmin şəxslərin indi durub parlament nümunəsindən danışmaları çox gülünc görünür

Maraqlıdır ki, bu gün parlamentin fəaliyyətinə xitam verilməsini və refrendumun keçirilməsini ağızdolusu tələb edənlərin özlərinin hakimiyyətləri zamanında bu ali qanunverici qurum, sözün əsl mənasında, bazara dönrədilmişdi və həmin zamanların görüntüləri bu gün də arxivlərdə qalmaqdadır.

Dövlətin ağır vaxtlarında, torpaqlarımızın işğala məruz qaldığı dönəmlərdə kürsü davası döyən, siqareti-siqaretə calayaraq oranı gecə barına çevirən həmin şəxslərin indi durub parlament nümunəsindən danışmaları çox gülünc görünür. Əbəs deyil ki, xalq vaxtında onları süpürərək bir kənara atdı və kürsü dərdi çəkənlərin dərsini verdi. İndi görünür, bu adamların yadlarına yenidən həmin vaxtları düşüb və qeyri-ciddi ideyaları ilə özlərindən oyunbazlıqlar qururlar. Bu isə keçməyəcək. Bəli, günahkar varsa, cəzası da var və bu cəza qanunla müvafiq qaydada həyata keçirilir, bundan sonra da belə olacaq. Artıq nə zaman həmin zamandır, nə də zamanın tələbləri belə uğursuz "ideyalarla" cavab verir...

***Rövşən RƏSULOV***

# Məlahət İbrahimqızı: İçimizdəki ermənipərəst qüvvələrin cəmiyyətdə təxribat xarakterli niyyəti növbəti dəfə də iflasa uğrayacaq



**"Son vaxtlar ölkəmizdə möhtərəm Prezidentimizin rəhbərliyi ilə əldə olunmuş möhtəşəm nailiyyətləri gözü götürməyən həm xaricdən, həm də daxildən olan bir qrup qüvvələr ictimaiyyətdə pozucu şayiələr yaymaqla məşğuldurlar". Bu fikirləri Millət vəkili Məlahət İbrahimqızı söyləyib.**

Məlahət İbrahimqızı qeyd edib ki, hətta ölkəmizdə keçən il Müzəffər Ali Baş Kamandanın rəhbərliyi ilə qəhrəman Milli Ordumuzun 30 il işğal altda olan Qarabağ torpaqlarının azad olunmasını, ölkəmizdə aparılan çoxşaxəli , uğurlu və əsaslı islahatlar bu qüvvələri qane etmir: "Xüzusilə də beşinci kalonun hətta üç mindən çox şəhidinin qanı ilə və qazilərimizin sağlamlığı ilə yazılan möhtəşəm və müqəddəs ZƏFƏRimizə belə kölgə salmaqdan utanmırlar".

Millət vəkili əlavə edub ki, bu qüvvələr çox gözəl dərk edirlər onlar dünya birliyində böyük nüfuz və imic qazanmış möhtərəm Prezidentimizə heç vaxt nə bügün, nə də gələcəkdə alternativ və ya rəqiib ola bilməzlər: "Çox təəssüf ki, xaricdəki ermənipərəst qüvvələrin köləsi olam 5-ci kalon "müqəddəs missiyalarını" hələ də davam etdirirlər. Son vaxtlar isə sosial şəbəkələrdə və bəzi internet mediada guya Milli Məclisin vaxtından qabaq buraxılması sayələrini kimi yalan informasiya ilə cəmiyyətdə çaşqınlıq salmağa çalışırlar. müəyyən radikal siyasi qüvvələrin maraqlarına xidmət edir. Son illərdə Möhtərəm Prezidentimizin rəhbərliyi ilə son illərdə məhkəmə-hüquq, maliyyə-bank, struktur, kadr sahəsində aparılan islahatlarla bərabər ölkəmizdə siyasi institutların də təkmilləşdirilməsi sahəsində də uğurlu islahatlar aparılmışdır. Və bu istiqamətdə hələ də işlər davam edir. Prezident Administrasiyasında xüsusi şöbənin yaradılması, vaxtından qabaq parlament seçkiləri, ölkəmizin siyasi istablişmentinin daha da təkmilləşdirilməsi plüralizm və demokratiyanın sahəsində qazanılan nailiyyətlər ictimaiyyət tərəfindən yüksək dəyərləndirilir. Məhz Prezident Administrasiyasında Siyasi partiyalar və Milli Qanunvericilik şöbəsinin günün tələbinə uyğun fəaliyyətinin nəticəsidir ki, ölkəmizin ictimai-siyasi həyatının yeni siyasi konfiqurasiyası formalaşmışdır. Bu gün Milli Qanunvericiliyin fəaliyyəti möhtərəm Prezidentimizin müdrik və titanik fəaliyyəti nəticəsində həyata keçirdiyi dövlət siyasəti ilə tamamilə harmoniya təşkil edir. Son parlament seçkilərindən sonra Milli Məclis aparatının strukturunda və fəaliyyətində aparılan islahatlar qanunverici hakimiyyətin çevik və səmərəli fəaliyyətinə böyük dəstək oldu. Bu mənada içimizdəki ermənipərəst qüvvələrin cəmiyyətdə təxribat xarakterli niyyəti növbəti dəfə də iflas olacaqdır. Bu gün Milli Məclisin istər dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasətin əhali arasında təbliğində, istər qanunvaricilikdəki fəal iştirakı və istərsə də beynəlxalq əlaqələrin daha da inkişaf etdirilməsində fəal iştirak edor. Qeyd etmək lazımdır ki, bu gün seçici-millət vəkili əlaqəsi daha təkmil və əlçatandır. Xüsusi qeyd etmək istərdim ki, həm koronavirus pandemiyası və həm də 44 günlük Vətən müharibəsi dövründə 6-cı çağırış deputatlarının fəaliyyəti ictimaiyyət tərəfindən çox təqdir edilir"-o qeyd edib.

Deputat əminliklə vurğulayıb ki, Vətən müharibəsində qazandığımız ölkəmizdə və bölgədə yaranmış yeni reallıqlar mühitində Qanunverici hakimiyyət dövlətçiliyimizin və milli qanunvericiliyimizin gücləndirilməsində daha böyük töhfə verəcəkdir.

# Vüqar Rəhimzadə: "Parlament seçkilərinin yenidən keçirilməsi ilə bağlı fikirlər əsassız və qərəzlidir"



"Son günlər Azərbaycanda referendumun keçirilməsi və Milli Məclisin buraxılmasından, erkən parlament seçkilərinin keçirilməsindən danışılır. Əlbəttə yenidən parlament seçkilərinin keçirilməsi ilə bağlı bu fikirlər əsassız və qərəzli yanaşmadır". Bunu SİA-ya açıqlamasında "İki Sahil" qəzetinin Baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə deyib.

Redaktorun sözlərinə görə, ümumiyyətlə parlament 2 ilə yaxındır ki, fəaliyyət göstərir və yeni formalaşıb: "Peşəkar və kifayət qədər səmərəli fəaliyyəti göz önündədir. Ona görə də yenidən parlament seçkilərinin keçirilməsi məqbul fikir deyil. Bir daha vurğulayıram ki, bu fikri söyləyənlər xoşniyyətə söykənmirlər. Müəyyən mənada qərəz və ədalətsiz yanaşma ortaya qoyurlar. Azərbaycanda parlamentin fəaliyyəti kifayət qədər səmərəlidir. Azərbaycanda kifayət qədər zəngin qanunvericilik bazasının formalaşmasına tövhə verirlər. Bu baxımdan parlamentin hər bir üzvü istənilən bir mövzuya çevik münasibəti ilə xüsusi diqqət çəkir. Belə olduğu halda yenidən seçkilərin keçirilməsinə lüzum görmürəm. Bu fikir qərəzli, ədalətsiz və müəyyən mənada çirkin niyyətlərini həyata keçirməyə cəhd göstərən insanların absurd fikirləridir. Bu absurd fikirlərə cəmiyyətdə yer verilə bilməz. Cəmiyyətin sağlam düşüncəli insanları hər şeyi yaxşı görür. Bu səsləndirənlər xoşniyyətli olmayan çirkin fikirlərdir. Qərəzli yanaşma ilə parlamentin yenidən buraxılması yalnış addım olar".Yenidən Parlament seçkilərinin keçirilməsi fikrinin səslәndirilməsi qərəzlidir

***Qönçə Quliyeva***

# "Hər ilin başında parlament seçkisi keçirilmir" - PARTİYA SƏDRİNDƏN REAKSİYA



"Bu gün parlamentin buraxılması üçün heç bir əsas görmürəm. Bir il bundan qabaq yeni parlament seçkisi keçirilib və insanlar seçilib. Artıq hər ilin başında parlament seçkisi keçirilmir. Mənə belə gəlir ki, bunların hamısı şayiədir". Bu sözləri SİA-ya açıqlamasında Milli Cəbhə Partiyasının sədri, deputat Razi Nurullayev deyib. Onun sözlərinə görə, belə bir məsələnin müzakirə olunmasına və hökumətdə belə bir idea olmasına da inanmıram: "O baxımdan, bunlar şaiyədir. Bu gün refendumun keçirilməsi böyük bir məsələdir. Bunun üçün ictimai dinləmə və cəmiyyətin hazırlanması lazımdır"

Deputat sözlərinə belə davam edib: "Konkret mövzular ortaya qoyulmalıdır ki, "hansı məsələlər üzrə referendum keçirilə bilər?" Bu, cəmiyyətdə ciddi şəkildə müzakirə olunmalıdır. Amma hələ ki, belə bir müzakirə yoxdur. Mən yaxın zamanda referendumun keçirilməsi ilə bağlı hər hansı bir qərarın ola biləcəyinə inanmıram".

***Ayşən Vəli***

# Ermənilər Qarabağda demoqrafiyanı kağız üzərində necə dəyişirlər?

**Qarabağın işğalı illərində Ermənistan hakimiyyəti və separatçı rejimin rəhbərləri mütəmadi olaraq işğal olunmuş Azərbaycan ərazilərində "daimi əhalinin" sayı barədə məlumatlar dərc edirdi. Bunun əksini göstərən obyektiv və subyektiv amillərə baxmayaraq, ildən-ilə bu rəqəmin sanki sıçrayışlarla artdığını təxmin etmək çətin deyil. "Calibr" analiitik mərkəzinin bu mövzuda hazırdığı təhlili oxucularımıza təqdim edirik.**



Ermənistan tərəfinin təqdim etdiyi rəqəmlərə görə, əgər 1996-cı ildə Qarabağdakı erməni əhalisinin sayı 126 min, 2019-cu ildə 148 min idisə, 44 günlük müharibədən əvvəl artıq 150 min idi. Əlbəttə ki, bu rəqəmlər saxtadır, əksinə, adekvat ermənilərin özləri etiraf etdikləri üçün ümumi dağıdıcılıq, aşağı həyat səviyyəsi, nəzarətsiz korrupsiya, quldur birləşmələrinin komandirlərinin cəzasızlığı və ən əsası yeni müharibə təhlükəsi erməniləri Qarabağdan uzaqlaşdırdı. Bəziləri - Ermənistana, amma çoxu - bizim bölgədən kənarda.

Əslində, hətta Ermənistandan didərgin düşmüş işğal kontingentinin şəxsi heyətini nəzərə alsaq da, Qarabağda işğalın son illərində 80 min adamı belə saymaq çətin idi. Bununla belə, Ermənistan statistikası "150 min əhali" haqqında inadla yalan danışmağa davam etdi, birincisi, o vaxt işğal olunmuş ərazilərdə məskunlaşma görüntüsü yaratmaq, ikincisi, beynəlxalq təşkilatların və diasporanın möhkəm maliyyə yardımını əlindən almaq.

Qonşularımız 44 günlük müharibədən sonra yalan danışmaq kimi pis təcrübədən əl çəkmədilər. Ermənistanın təslim olmasından və Rusiyanın sülhməramlı qüvvələrinin Qarabağdakı bəzi azad edilmiş Azərbaycan ərazilərinə girməsindən sonra, erməni mətbuatı oraya qayıtdığı iddia edilən on minlərlə Qarabağ ermənisi haqqında mütəmadi olaraq məlumatlar dərc etməyə başladı. Əvvəlcə təxminən 30.000, sonra təxminən 52.000 deyildi. Özünü müvəqqəti olaraq Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan Azərbaycan ərazilərinin "əmək və sosial məsələlər naziri" adlandıran Mane Tandilyan hazırda Qarabağda 120.000 insanın yaşadığını hansı əsasla bəyan etdi!?

Mövzudan bir az kənara çıxıb aşağıdakıları qeyd etməliyəm. Hər 10 ildən bir öldürülən ermənilərin sayının süni artırıldığı qondarma "erməni soyqırımı"nda olduğu kimi burada klassik janrın-"erməni nağılları" ilə məşğul olduğunu deməliyik. 1915-ci il hadisələri zamanı ölən ermənilərin sayı süni şəkildə artırıldı - bir neçə mindən bir milyon yarımadək. Baxmayaraq ki, son vaxtlar erməni təbliğat maşını getdikcə 2 milyon rəqəmini dilə gətirir.

Ciddi danışsaq, təbii ki, bu gün Qarabağda yaşayan nəinki 120 min, hətta 50 min ermənidən belə söhbət gedə bilməz. 2021-ci ilin yanvar ayının sonunda BMT -nin Qaçqınlar Agentliyi 24993 nəfərin Ermənistandan Qarabağa qayıtdığı statistikanı dərc etdi. Ancaq burada başa düşmək lazımdır ki, bəziləri Qarabağa daha çox yaşamaq üçün deyil, əşyalarını götürmək və ya evlərini satmaq məqsədi ilə qayıtmışlar.

Yeri gəlmişkən, erməni statistika işçilərinin özləri Qarabağdakı əhalinin real sayı ilə bağlı yalanların ifşa olunmasına kömək etmişlər. Belə ki, onların dərc etdiyi məlumatlara görə, "2021 -ci ilin iyul ayında Qarabağda 46 uşaq dünyaya gəlib, 81 nəfər ölüb". Yaxşı, 2020-ci ilin məlumatları ilə müqayisə edək. 2020-ci ilin 1-ci yarısında Azərbaycanın işğal olunmuş həmin ərazilərində 960 uşaq dünyaya gəlib. Bu, o deməkdir ki, orada hər ay orta hesabla 160 uşaq dünyaya gəlir. 2021-ci ilin iyulunda bu rəqəm təxminən 4 dəfə az olub. Müvafiq olaraq, hazırda burada 25 mindən çox insan yaşamır. Beləliklə, ölümlərin artması səbəbindən Qarabağda nəinki əhalinin sürətlə azalmasını, həm də onun real sayını əldə edirik.



Sonda Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına verdiyi müsahibədə dediklərini xatırlatmağı məqsədəuyğun hesab edirik.

"Statusa gəlincə, bu gün orada 25 min insan yaşayır. Orada gedən proseslər haqqında kifayət qədər geniş və müxtəlif məlumatlara sahibik. Müharibədən əvvəl orada nə baş verdiyini bilirdik. Orada yaşayanların real sayı 25 min nəfərdir. Digər rəqəmlərin çəkilir, deyirlər, müharibədən sonra 50 mindən çox insan ora qayıtdı. Bəlkə də, geri qayıtmaq orada qalmaq demək deyil. Geri qayıtdı, sonra geri döndü. İkincisi, müxtəlif texniki vasitələrimiz, peykimiz var. Oradakı maşınların sayını bilirik. İnsanların hərəkətini görürük. Başqa, necə deyərlər, obyektiv vasitələr də var, bunları əsas götürərək orada neçə nəfərin yaşadığını dəqiq bilirik- maksimum 25 min. Gündəlik monitorinq aparırıq - Laçın dəhlizinə nə qədər maşın girdi, neçəsi qaldı. Hər gün oradan çıxan avtomobillərin sayı daxil olanların sayını xeyli üstələyir. 25 min nəfər üçün ayrıca statusun yaradılması hansı məntiqə uyğundur? "- deyə dövlət başçısı bildirib.

***Müəllif - Samir Vəliyev***

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Əli Kərimlinin AXCP-si yenidən çalxalandı: istefalar start götürür

## Və ya radikal müxalifət partiyasının sədri belə məlumatları nə qədər gizlin saxlamağa çalışsa da...



Zaman-zaman Əli Kərimlinin sədri olduğu AXCP-dən istefaların verilməsi, əslində, təəccüblü hal deyil.Yəni daha dəqiq desək, bu günə qədər istefa verənlərin son sözləri bilavasitə Əli Kərimlini ittiham etmələri ilə əlaqədar olub. Bu dəfə də eyni hal yaşanıb. Özü də, vaxtilə sosial şəbəkələrdə cəbhəçi sədri ən qızğın müdafiə edən biri tərəfindən. O, partiya sədrinə xüsusi yaxınlığı ilə seçilən aktivist Fatimə Hüseynovadır. Yeri gəlmişkən, onu da bildirək ki, Əli Kərimli belə məlumatları maksimum gizli saxlamağa çalışır, istefa xəbərlərinin yayılmaması üçün əlindən gələni edir. Fəqət, onun bu cəhdləri də puça çıxır. Gec, ya da tez əsl reallıq ictimai rəyin diqqətinə çatır. O da əbəs deyil ki, bu, baş verən istefalar fonunda ilkin hal deyil. Yəni son zamanlar AXCP-nin daxilində ciddi narazılıq baş qaldırdığı, adları gizli saxlanılan daha bir neçə nəfərin istefa verdiyi barədə məlumatlar kifayət qədərdir.

**Əli Kərimli AXCP-nin sədri olaraq mühüm bəyannamələrin heç birinə imzasını atmamaqla açıq-aydın düşmən cinahında yer aldığını istər etiraf, istərsə də sübut etmiş oldu**

İndi isə AXCP daxilində mövcud mühitdən narazılığın olması, təşkilatın faktiki olaraq cəmiyyət arasında nüfuzdan düşməsi, funksionerlərin və sıravi üzvlərin Əli Kərimlinin bir sıra qərarları ilə razılaşmaması kimi səbəblərinə birini də əlavə edək. Bu, ilk növbədə, partiya sədri olaraq istər 44 günlük Vətən müharibəsi başlayarkən onun siyasi partiyaların birgə imzaladıqları Ali Baş Komandana dəstək bəyannaməsi, eləcə də qələbədən sonra Şuşada qardaş Türkiyə ilə imzalanan tarixi Şuşa bəyannaməsi ilə bağlıdır. Əli Kərimli AXCP-nin sədri olaraq mühüm bəyannamələrin heç birinə imzasını atmamaqla açıq-aydın düşmən cinahında yer aldığını istər etiraf, istərsə də sübut etmiş oldu. Necə deyərlər, bizə heç düşmən də lazım deyilmiş, düşmən lap içimizdə oturubmuş!

Bu baxımdan, Əli Kərimliyə qarşı irəli sürülən ittihamların əsas mahiyyəti ondan ibarət olub: Türkiyənin qardaş ölkə olması və Vətən müharibəsində Azərbaycana ən böyük dəstəklərini verməsi fonunda AXCP sədri türk düşmənlərinin - erməni daşnaklarının, yunan millətçilərinin, kürd separatçılarının fəaliyyətlərinə bənzər fəaliyyət göstərib, yaxud, bu cinahlara dəstək göstərən bəlli Qərb dairələr qarşısında "quyruq bulayıb". Söz yox ki, özünə hörmət qoyan, vicdanı olan, dövlət maraqlarına bağlı olan istənilən ağıllı adam bu cür xəyanətkarın yanında ola bilməz.

**Əli Kərimli ən fəal cəbhəçi gəncin xəstə anasına belə yardım etməkdən boyun qaçırıb!**

Qaldı ki, digər məsələlərə - Fatimə Hüseynovanın AXCP sədrindən imtina etməsinin səbəbi onun müraciətinin havada qalması ilə bağlıdır. Belə ki, bir neçə gün bundan əvvəl Fatimənin anasının xəstəliyi ilə əlaqədar yardım istəməsi barədə sosial şəbəkələrdə məlumat getmişdi. Onun bu məsələ ilə bağlı AXCP sədri Əli Kərimliyə də müraciət etdiyi, lakin heç bir köməklik göstərilmədiyi bildirilir.

**AXCP sədri partiyasının fəalları həbs olunarkən, yalnız ilk günlər onların həbsləri ətrafında manipulyasiyalar edir, sonradan isə həbsə düşənlər, sadəcə, unudulurlar**

Daha bir amil isə, Ə.Kərimlinin əldə elədiyi maddi gəlirləri partiyadaşları ilə bölüşməməsi, vəsaitləri yalnız özünə və ailəsinə xərcləməsidir. Hətta AXCP sədrinin sosial şəbəkədəki trollarının son vaxtlar passivləşməsi də, belə deməyə zəmin yaradır ki, artıq onlar üçün ayrılmış məbləğlər azalıb, onların vaxtı-vaxtında həftəlik muzdları ödənilmir. Habelə, Kərimli çalışır ki, törətdiyi hər bir qanunsuz əməllərinə görə, həbs olunanların sayı çoxalsın və o da, bu məsələdən öz siyasi və şəxsi maraqları üçün istifadə edib, daha çox gəlirlər əldə etsin. Hansı ki, biz dəfələrlə, onu da qeyd etmişik ki, AXCP sədri partiyasının fəalları həbs olunarkən, yalnız ilk günlər onların həbsləri ətrafında manipulyasiyalar edir, sonradan isə həbsə düşənlər, sadəcə, unudulurlar. Bunu ona xatırladanlar isə, dərhal "satqın" və "xəyanətkar" adlandırılaraq, AXCP sıralarından çıxarılırlar. Beləliklə, cidanı çuvalda gizlədə bilməyən Ə.Kərimli, son anda daxildə baş verən qarşıdurma və savaşları ictimai rəydən gizlədə bilmir. Necə deyərlər, fakt hər zaman fakt olaraq qalır və istefa faktları da bu sırada öz yerini tutub.

*Rövşən RƏSULOV*

***P.S. Lakin digər tərəfdən, Fatimə Hüseynovanın istefasının bu məsələ ilə əlaqələndirilməsi ilə yanaşı, digər məsələlər də mövcuddur. Yəni anti-Azərbaycan siyasəti ilə yanaşı, anti-Türkiyə siyasətini də gücləndirmək. Hadisələrin bu cür davam etməsi isə AXCP-də narazılığın daha da artacağını və yeni istefalar dalğasının yaranacağını kifayət qədər proqnozlaşdırmağa zəmin yaradır. Hər halda, onsuz da illər boyu məhz Əli Kərimlinin hərisliyi, iddiaları və düşmənçiliyi, xəyanəti ucbatından çoxsaylı yerlərə parçalanan AXCP bir daha parçalanmaq, məhv olmaq dərəcəsinə çatıb. Yəni bu kimi istefaların qarşısı bundan sonra da alınmayacaq.***

# Belaruslu politoloq Ermənistan ictimaiyyətinin adekvatlığına şübhə edir

**Belarus prezidenti Aleksandr Lukaşenkonun bu yaxınlarda Minks və Bakı arasındakı dostluq münasibətlərini ən yüksək səviyyədə qiymətləndirməsi, eləcə də Azərbaycanın çoxsaylı təzyiqlərə rəğmən, Qərbə tərəf istiqamət götürməməsi barəsindəki fikirləri, daha dəqiq desək, Bakının Minsklə razılaşmaları müqabilində bu ölkəyə karbohidrogen resurslarını çatdırmasını dəyərləndirməsi Ermənistanda əsəbi reaksiyalarla müşahidə edildi. Belə ki, erməni siyasi ekspertlərinin xoşlarına gəlməyən amil Aleksandr Lukaşenkonun İlham Əliyevi Qarabağ münaqişəsinin həll olunmasındakı roluna verdiyi yüksək qiyməti oldu.**

“Əlbəttə, sülhə aparan yol yeni başlayıb”, deyən Belarusun dövlət başçısı həm erməni, həm də Azərbaycan xalqının sakit və dinc həyat sürmələrinə haqları olduqlarını bildirib. SİA xəbər verir ki, bu barədə BELTA nəşri yazıb. Aleksandr Lukaşenko həmçinin qeyd edib ki, Belarus hər zaman Azərbaycana istər texnologiyalar baxımından, istərsə də texniki cəhətdən yardım göstərməyə hazırdır.

Mövzu ilə bağlı rusdilli caliber analitik informasiya mərkəzinə müsahibə verən belaruslu politoloq, “Nomos” konservativ mərkəzinin direktoru, Belarusun Milli Elmlər Akademiyasının fəlsəfə üzrə elmi əməkdaşı, “Belaya Rus” Respublika ictimai birliyinin eksperti Pyotr Petrovski bildirib ki, bu gün erməni cəmiyyətində revanşçılıq və millətçilik ruhunda olan insanlar kifayət qədərdir və bu faktor xüsusilə Qarabağla bağlı situasiyada mövcuddur.

### “Bax bu, tipik spekulyasiyadır! Ermənistan ictimaiyyəti revanşistlikdən və şovinizmlikdən kənara çəkilməlidir”

SİTAT: “Biz, seçkilərin nəticələrini gördük - seçicilərin 25%-ə yaxını ikinci prezident Robert Koçaryanın tərəfdarları olub. Seçkilərdə iştirak edən bu zümrə məhz revanşist və millətçi gücləri dəstəkləyərək, hərbi əməliyyatlara çağırışlar edənlərdirlər. Belarus Respublikası Ermənistanla iqtisadi sferada əməkdaşlıq edir. Ona görə də İrəvanın şikayət etməsinə dəyməz. Minsk həm KTMT, həm də Avrasiya İqtisadi İttifaqı çərçivəsindəki bütün razılaşmaları yerinə yetirir. Və mən xatırladıram ki, Ermənistanın özü Qarabağı Azərbaycanın tərkib hissəsi kimi görür. İrəvan “DQR”i tanımayıb, elə deyilmi?”.




> Pyotr Petrovski: “Seçkilərdə iştirak edən bu zümrə məhz revanşist və millətçi gücləri dəstəkləyərək, hərbi əməliyyatlara çağırışlar edənlərdirlər



Jurnalistin Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır” fikrini xatırlatmasına, lakin bu fikirlərin sənədləşdirilməməsinə cavab olaraq belaruslu politoloq bildirib. SİTAT: “Bax bu, tipik spekulyasiyadır! Ermənistan ictimaiyyəti revanşistlikdən və şovinizmlikdən kənara çəkilməlidir. Bu baxımdan, qoy iradlarını öz rəhbərliklərinə tərəf yönəltsinlər. Ermənilərə elə erməni ictimaiyyətinin özü ucbatından düşdükləri blokadadan çıxmaları üçün real siyasət çərçivəsinə geri dönmək lazımdır. Azərbaycanla, Türkiyə ilə və başqa ölkələrlə münasibətlərdə diplomatik əlaqələri yoluna qoymaq vacibdir. Məhz Moskva, Minsk və Ankara buna eyham vururdular”.

### “Erməni cəmiyyətinin böyük hissəsində arxaik, tarixi-mərkəzçi düşüncəsi mövcuddur”

Pertovski müsahibəsi əsnasında digər məqamlara da toxunaraq bildirib ki, Ermənistan özünüblokada vəziyyətinə salıb və əlbəttə ki, böyük iqtisadi gecikmələrə məruz qalır. SİTAT: “Sərhədləri açmaq lazımdır, çünki bu erməni tərəfinə ciddi səmərə gətirə bilər. Əgər Ermənistanın mövcud rəhbərliyi bu barədə düşünmürsə, onda məndə bu ölkənin sükanı arxasında dayananların adekvatlıqları barədə suallar yaranır”.

Onun sözlərinə görə, ermənilər özlərini “ən qədim xalq” kimi sırımaqla nəsillərini az qala daş dövrünə bağlayırlar. “Onlar tarixdə ilişib qalıblar, guya onların hansısa “qədimlikləri” başqaları qarşısındakı üstünlüklərini sübuta yetirir. Erməni cəmiyyətinin böyük hissəsində arxaik, tarixi-mərkəzçi düşüncəsi mövcuddur. İstərdim ki, Ermənistanda keçmişə deyil, gələcəyə baxsınlar. Və bir də: ölkələr arasındakı beynəlxalq razılaşmaları oxumaq lazımdır. Mənə belə gəlir ki, revanşistlər müharibədən sonra ölkə rəhbərliyinin imzaladığı Ermənistan respublikasının öhdəliklərini, həm Minsk razılaşmalarını, həm də Qarabağ üzrə digər razılaşmaları öyrənməlidirlər”, Belaruslu politoloq qeyd edib.

**_Rövşən RƏSULOV_**

## AXC-Müsavat cütlüyünün
# Şuşa xəyanəti

Milli mədəniyyətimizin incisi, poeziyamızın və musiqimizin beşiyi Şuşanın Azərbaycan tarixində müstəsna yeri və əhəmiyyəti vardır. Zəngin tarixi, əsrarəngiz təbiəti olan Şuşa şəhərinin əsası 18-ci əsrin ortalarında qoyulub. Tarixi mənbələrə görə, Qarabağ xanı Pənahəli xan aramsız hücumlardan qorunmaq üçün 1750-ci illərdə Bayat və Şahbulaq adlı qalalar tikdirsə də, bu qalalardan heç biri xanlığı fasiləsiz müharibələrdən qoruya bilmir. Qarabağ tarixini araşdıran Azərbaycan tarixçiləri yazırlar ki, dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verdiyindən, Pənahəli xan şəhəri elə burda salır. Şəhər əvvəlcə onun şərəfinə Pənahabad adlandırılsa da, sonralar Şuşa çağrılıb.

Çox təəssüf ki, müstəqilliyimizin ilk illərində respublikaya rəhbərlik edən idrakı sönük başçıların xəyanəti üzündən Azərbaycanın başı üstünü qara buludlar aldı. 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyəti güc yolu ilə zəbt etməsindən sonra vəziyyət daha da ağırlaşaraq faciəvi mərhələyə qədəm qoydu. Hakimiyyəti zorla, top-tüfəng gücünə zəbt edən rüsvayçı AXC-Müsavat hakimiyyətinin satqın, dönük “rəhbərləri” Azərbaycanı qısa müddətdə parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qoydular. Ölkə vətəndaş müharibəsinin bir addımlığında idi. Heç bir nəzəri biliyi, dövlətçilik təcrübəsi, idarəçilik qabiliyyəti olmayan “bəylər”in yarıtmaz idarəçiliyi ilə respublika dərin böhrana sürükləndi.

Danılmaz faktdır ki, o dövrdə Şuşanın təhvil verilməsində, Laçının müdafiəsinin lazımi səviyyədə təşkil edilməməsində, Kəlbəcərin işğal edilməsində AXC-Müsavat hakimiyyəti günahkardır. Bu gün sosial şəbəkələrdə yalanları, iftiraları və tarixi təhrif etməsi ilə ikrah doğuran o vaxtkı müdafiə naziri “əgər Şuşa işğal altına düşsə, başıma güllə vuracağam” deyirdi. Şuşa xəyanətkarlığın qurbanı oldu, erməni quldurları tərəfindən işğal olundu, ancaq bu sözləri deyən o müdafiə nazirinin heç ruhu da incimədi. Bu xəyanətin nəticəsində 289 kvadrat kilometr ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonunu Ermənistan silahlı qüvvələri işğal etdi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü. Ermənilərin əsir götürdükləri və Şuşa həbsxanasında saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi.

Ötən əsrin 90-cı illərində bu torpaqlarımız AXC-Müsavat cütlüyünün hakimiyyət hərisliyinin qurbanı olub. Ölkə başçısı bu barədə deyib: “Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik edib. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır! Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq”.

Bu gün radikal müxalifət düşərgəsinin antimilli təmsilçiləri, xüsusilə də AXCP sədri Əli Kərimli, “Milli Şura”nın rəhbəri Cəmil Həsənli, bu qurumun Koordinasiya Şurasının üzvü Tofiq Yaqublu və onların tör-töküntüləri bilmədirlər ki, xalqa yaşatdıqları o ağır günləri, zülmləri, talançılığı, oğurluğu, müasir tariximizin o qara səhifələrini heç kim unutmayıb. Bələləri yaxşı bilmədirlər ki, xalqımızın və dövlətçiliyimizin ən müsibətli dövrlərindən olan 1992-1993- cü illərin məşəqqətləri, eləcə də bu antimilli ünsürlərin xəyanətkarlığı, səriştəsizliyi ucbatından Qarabağın tacı olan Şuşanın erməni işğalına məruz qalması tarixin yaddaşından heç vaxt silinməyəcək.

**_Zahid Rza_**

# Rusiyalı borclular xaricə gedə bilməzlər

Rusiya Milli Peşəkar Kolleksiya Agentlikləri Birliyinin (NAPKA) rəhbəri Elman Mehdiyev “RİA Novosti”yə verdiyi açıqlamasında böyük borclar səbəbi ilə xaricə səyahət etməkdə çətinlik çəkə biləcək rusların sayının artıq 7,2 milyona çatdığını bildirib. Birlik rəhbəri onu da bildirib ki, 90 gündən artıq vaxtı keçmiş borclar əsasən 30 min rubldan çox olan borclardır: “Əgər məhkəmə qərara alarsa, o halda borc ödəyiciləri ölkəni tərk edə bilməyəcəklər”.



Mehdiyevin dediyinə görə, Rusiyada səyahətə getmək istəyən hər hansı bir borc ödəyicisi səyahətdən əvvəl adı və atasının adını Federal İcraçı Xidmətinin veb saytında yoxlatmalıdır. Əgər onun adı həmin siyahıda varsa, deməli, borcunu ödəyənə qədər səyahətini təxirə salmalıdır. Əks halda onun sərhəddən geri qaytarılması da istisna olunmur.

Xatırladaq ki, ötən ay Rusiya Vəkillər Kollegiyasının idarə heyətinin sədri Vladimir Qruzdev “RİA Novosti”yə bildirib ki, qanunvericilik fəaliyyəti üzrə hökumət komissiyası məhkəmə icraçılarına xaricə səyahət etmək hüququ olmayan borcluların xarici pasportlarını ələ keçirməsinə imkan verən layihəni təsdiqləyib. Amma sənəd hələ ki Dövlət Duması tərəfindən təsdiqlənməyib.

**_Ağasəf Babayev_**

# Bakı Bəyannaməsi - Azərbaycanın beynəlxalq reytinqinin göstəricisidir

**Bugün Azərbaycan qalib ölkə kimi dünya dövlətləri tərəfindən qəbul edilməklə yanaşı, həmçinin, qonşu dövlətlərlə monolit əlaqələrə malikdir. Bu nailiyyətlər isə Prezident, Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, nəhayət, diplomatik siyasətinin reallığıdır.**






Məhz İkinci Vətən Müharibəsinin 44 gün ərzində 30 il işğalçı Ermənistandan azad olunan torpaqlarımız müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın dövlət başçısına olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Türkiyə kimi güclü qardaş dövlətin Azərbaycanın yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi, həmçinin, dost Pakistan dövlətinin ölkəmizə kömək etməyə hazır olduğunu bəyan etməsi, həmçinin, qonşu dövlətlər - Rusiya, İran, Gürcüstanın və digər tərəfdaş dövlətlərin haqq işimizi müdafiə etməsi, həmçinin, bir çox dövlətlər, beynəlxalq təşkilatlar Ali Baş Komandanımız, Prezident İlham Əliyevin son 18 illik Prezidentlik fəaliyyəti dövründə həyata keçirilən xarici siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan beynəlxalq aləmdə çox böyük hörmətə layiq olan, haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası yolunda, Güclü Orduya, iqtisadi gücə malik olan ölkə kimi tanınır, sözünə etibar olunur. Və bunun nəticəsidir ki, Azərbaycanın dünyadakı dostlarının sayı artmaqdadır həmçinin, beynəlxalq təşkilatlarda fəaliyyəti çox müsbətdir. Çünki Azərbaycan Prezidenti İlham Əliyev cənabları nə vaxt, nəyi, necə etmək lazımdırsa bilir: "Nə vaxt, nəyi, necə etmək lazımdır, bunu biz bilirik. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında",-deyən Prezidentimiz İlham Əliyev cənabları bugünkü əldə olunan qələbələr bir daha Ali Baş Komandanımızın nə vaxt, nəyi, necə etmək dazımdırın nəticəsidir ki, bu gün müstəqil Azərbaycanı güclü, sabit bir məkana çevirərək Azərbaycan tarixinə qələbələr yazdı. Həm də 44 günlük müharibə dost və düşməni tanıtdırdı. Dövlət başçımızın dediyi kimi: "Bu müharibə, eyni zamanda, onu göstərdi ki, Azərbaycanın əsl dostları kimlərdir, hansı ölkələrdir. Əlbəttə ki, Azərbaycan şirkətləri, ilk növbədə, bu işlərdə iştirak edəcək və bizim üçün dost olan ölkələrin şirkətlərini də biz dəvət edəcəyik, daha doğrusu, artıq dəvət etmişik".

Son günlər Türkiyənin bir sıra bölgələrində baş vermiş meşə yanğınları nəticəsində ekologiyaya, ətraf mühitə, yaşayış məntəqələrinə və infrastruktura ciddi ziyan dəyib. Bir neçə gündür davam edən yanğınlar insan tələfatına da səbəb olub. Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanındadır. Azərbaycan xalqı qardaş Türkiyədə baş vermiş meşə yanğınları ilə bağlı hadisələri böyük narahatlıq və həyəcanla izləyir.

### Əsl dostluq isə özünü çətin anlarda büruzə verir

Son günlər Türkiyənin bir sıra bölgələrində baş vermiş meşə yanğınları nəticəsində insan tələfatına səbəb olub, ekologiyaya, ətraf mühitə, yaşayış məntəqələrinə və infrastruktura ciddi ziyan dəyib. Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim birbirinin yanındadır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları tarixin ən dar məqamlarında, ən çətin günlərində belə öz sözünü deyir. Azərbaycan dövləti bu çətin günlərdə Türkiyənin yanındadır və meşə yanğınlarının qarşısının alınmasına öz yardımını edir. Yanğından dərhal sonra Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana baş vermiş faciədən dərin kədər hissi keçirdiyini, Azərbaycan hökuməti və xalqının hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə xalqı ilə həmrəy olduğunu vurğuladı. Eyni zamanda, dağıdıcı yanğınlar nəticəsində həlak olanların ailələrinə və yaxınlarına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığını ifadə etdi. Azərbaycan Prezidentinin tapşırıq və göstərişlərinə əsasən, Fövqəladə Hallar Nazirliyinin 500 nəfərdən ibarət şəxsi heyəti, helikopterlər, həmçinin digər lazımi avadanlıq və ləvazimatların qısa zamanda qardaş Türkiyəyə göndərilməsi istiqamətində tədbirlər görülür. Azərbaycan xalqı olaraq hər zaman qardaş Türkiyənin yanındadır və bundan sonra da olacaq.

Və iyulun 27-də Milli Məclisdə ilk dəfə olaraq Azərbaycan, Pakistan və Türkiyə parlament sədrlərinin üçtərəfli görüşü və yekunda imzalanan Bakı Bəyannaməsi də üç dost ölkənin birliyinin, həmrəyliyinin göstəricisidir. Azərbaycan, Türkiyə, Pakistan bu gün regionun və dünyanın ən aparıcı, söz sahibi olan ölkələrindəndir. Bu üç ölkə həm də bir-biri ilə sıx tellərlə bağlı olan dost, qardaş və müttəfiq ölkələrdir. Eyni zamanda, Azərbaycan-Pakistan-Türkiyə münasibətləri xalqlarımız arasında qarşılıqlı etimada söykənir. Münaqişə başlayandan bəri hər iki ölkə "qardaş Azərbaycanın yanındayıq", - dedi. Türkiyənin bir çox yerlərində Azərbaycanla həmrəylik nümayiş etdirmək üçün Azərbaycan və Türkiyə bayraqları birlikdə dalğalanır. Ölkəmizdə, eləcə də kənarda yaşayan əcnəbi vətəndaşlar, xüsusilə Türkiyə və Pakistandan dövlət başçımıza yazılan məktublarda bu şanlı mübarizədə ürəklərinin qardaş Azərbaycanla bir vurduğunu qeyd etdilər. Bütövlükdə bu üç ölkənin son illərdə daha da möhkəmlənən çoxşaxəli əməkdaşlığı Avrasiyada yeni aparıcı güc mərkəzinin formalaşmasını şərtləndirir. Sevindirici haldır ki, təzyiq və təhdid mexanizmləri tətbiq etmək niyyətindən uzaqda dayanan Türkiyə, Pakistan və Azərbaycanın Avrasiya coğrafiyasında formalaşdırdığı yeni güc mərkəzi rəqabətqabiliyyətlidir, inkişafa və qarşılıqlı faydalı əməkdaşlığın əhatə dairəsinin genişlənməsinə, bütövlükdə regional və qlobal tərəqqiyə xidmət edir. Azərbaycan bütün məsələlərdə Türkiyə və Pakistanın mövqeyini dəstəkləyir. Ötən 29 ildə bu məsələlərdə, bu mövqelərdə heç bir dəyişiklik yoxdur və ola da bilməz. Həm də ölkələrimizin lidelər arasında gözəl, səmimi dostluq və qardaşlıq münasibətləri var. Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan arasında olan münasibətlər isə dünyaya örnək, nümunə, model olacaq qardaşlıq münasibətləridir.

Bir sözlə, Bakı Bəyannaməsi Azərbaycanın regional inkişafın aparıcı qüvvəsi kimi yerinin və rolunun möhkəmləndirilməsində, dünya birliyində nüfuzunun, siyasi mövqeyinin daha da artmasında əhəmiyyətli rol oynayacaq. Dünyaya səs salan, Azərbaycan-Türkiyə birliyinin zirvəsi kimi dəyərləndirilən Şuşa Bəyannaməsinin imzalanmasından ötən ay yarımdan az bir vaxtda ölkəmizin dost ölkələrin parlamentləri arasında əməkdaşlığın dərinləşdirilməsi üçün belə bir təşəbbüsünün dəstəklənərək sonda Bakı Bəyannaməsinə yol açması bir daha təsdiqləyir ki, yeni reallıqlara uyğun olaraq gələcəyə hesablanmış hədəflərin icrasının ilk mərhələsi uğurludur.

Bakı Bəyannaməsinin imzalanması Prezident İlham Əliyevin siyasi iradəsinin, qətiyyətinin və yürütdüyü çoxvektorlu xarici siyasətin Türkiyə və Pakistan kimi güclü dövlətlər tərəfindən dəstəklənməsi, həm də dövlətimizin başçısının müstəqil xarici siyasət yürütməsinin göstəricisidir.

***HƏMİD PƏNAHOV,***
***YAP Qazax rayon təşkilatının sədri***

# "Paşinyan siyasi təlxək rolunda çıxış etməyə davam edəcək"

**"20 iyun tarixində Ermənistan parlament seçkilərinin nəticələrində bizim üçün pis və ən pis seçimlər arasından Paşinyanın qalib gəlməsi daha məqbul idi". Bunu SİA-ya açıqlamasında Bakı Politoloqlar klubunun sədri Zaur Məmmədov deyib.**



Onun sözlərinə görə, seçkilərdə ikinci yerdə namizəd kimi dayanan Koçaryan idi: "Bu gün onun palatası da parlamentdə düşdü. Onun hakimiyyəti dövründə birinci Qarabağ müharibəsi zamanı etdikləri vəhşiliklər hər kəsə məlumdur. Eyni zamanda, Koçaryan revanşizm meyillərə malikdir. Paşinyan isə Rusiya ilə Ermənistan arasında münasibətlərdə bir qədər soyuq ab-hava gətirdiyi və bir qədər bölgə ilə bağlı revanşistlərdən fərqli düşüncəyə sahib olduğu üçün onun hakimiyyətdə olması Azərbaycanın Qarabağla və bölgədə gedən proseslərlə bağlı maraqların reallaşması müddətini daha tezləşdirə bilər. Düşünürəm ki, Rusiya və Ermənistan arasında olan münasibətlər 44 günlük müharibəyə gətirib çıxardı. Nəticə etibarilə qalib ölkə biz olduq. Qalib olduğumuz üçün müəyyən qədər məqsədlərimizi reallaşdıra bilərik. Ümumi götürüldükdə isə çox təəssüflər olsun ki, Nikol Paşinyanın özü də şovinist və erməni xisləti baxımından seçilməyən siyasətçilərdəndir. Paşinyanın da son zamanlar sərhədlə və Qarabağla bağlı çıxışları onu göstərir ki, bu günə qədər belə siyasi təlxək rolunu oynamaqda davam edəcək. Əgər həqiqətən də Paşinyan öz xalqı və dövləti üçün nələrəsə nail olmaq istəyirsə, ilk növbədə Azərbaycanla razılaşmalı və ərazi iddialarından əl çəkməlidir. Əks təqdirdə, Ermənistan dövlətçiliyi bundan sonra özünün məğlubiyyətini və son dövrlərini yaşayacaqdır. Bizim xəbərdarlığımız da onlar üçün çox niyyətdir ki, heç bir havadarlarına güvənməsinlər və tez bir zamanda Azərbaycanla sərhədlərin demarkasiyasına başlasınlar və Azərbaycanın sərhədlərini tanısınlar. Qarabağın Azərbaycan ərazisi olduğunu qəbul etməlidirlər. Müharibədə məğlub tərəf olduqlarını etiraf etməlidir. Bundan sonra yeni proseslərə başlanıla bilər. Əgər Paşinyan yenə də əvvəlki kimi Cənubi Qafqazdakı yeni postmünaqişə mərhələsindəki proseslərə xələl gətirəcəksə, bu, onun üçün çox baha başa gələcəkdir".

***Qönçə Quliyeva***

# Erməni prezident erməni baş nazirə istehza edir?



**Ötən gündən başlayaraq Ermənistan prezidenti Armen Sarkisyan ölkəyə baş nazir "təyin etdiyi" Nikol Paşinyanın təkliflərini dəstəkləyən və müəyyən vəzifələrə irəli sürdüyü namizədləri təyin edən bir sıra fərmanlar imzalayıb və imzalamaqda davam etməkdədir.**

Məlum olduğu kimi, artıq "yeni" baş nazirin "göstərişi ilə" Ermənistan prezidenti Arşak Karapetyanı müdafiə naziri, Suren Papikyan baş nazirin müavini, Romanos Petrosyanı ətraf mühit naziri, Narek Mkrtçyanı əmək və sosial işlər naziri təyin edib. Maraqlıdır ki, Lilit Makuntsun Ermənistanın ABŞ-dakı səfiri vəzifəsinə təyin edilməsi bəzi erməniləri qane etməsə də, amma hələ ki, səslərini içlərinə salıb, gözləmə mövqeyində "dayanıblar". Çünki göstəriş Nikolun göstərişidir.

Qeyd edək ki, erməni prezident Armen Sarkisyan Nikol Paşinyanı Ermənistanın baş naziri postuna təsdiq edərkən söylədiyi qisaca bir nitqi bu gün bəzi ermənilər tərəfindən Armenin Nikolu dolaması kimi təqdim edilməkdədir: "Cənab Baş nazir, sizi Baş nazir təyin etmək haqqında bir fərman imzalamaqdan çox məmnunam. "Məxməri inqilab"ı həyata keçirməyinizi və bu inqilabın bütün tələblərini yerinə yetirməyinizi arzu edirəm".

Rusların "rıbak na rıbaka" məsəlini əsas gətirən ermənilər, prezident Armen Sarkisyanın Nikol haqda səsləndirdiyi bu fikirləri onu ələ salıb, istehza etməkdən başqa bir şey olmadığını bildirirlər.

Yenə də bəzi ermənilərin fikrincə, hakimiyyətdə olduğu üç il ərzində Nikol Paşinyan şəxsi hərəkətsizliyi, passivliyi və uğursuzluqlarına görə özünü yox, daha çox sələflərini günahlandırır. Bundan əlavə, ötən vaxtlar ermənilərə hər kəsin hər şeyə görə cavab verəcək vədini verən Paşinyan hələ də onları, yeni erməniləri gözlətməkdədir.

***Ağasəf Babayev***

# Trolbaşı və qondarma dəstəsinin "Jirinovski" xoru...

*...Yaxud Əli Kərimlinin, Cəmil Həsənlinin Jirinovskiyə cavab verməyə cəsarətləri çatmadı*






Siyasi təlxək Jirinovski cəmi bir neçə ay sonra keçiriləcək parlament seçkilərində partiyasının millətçilərin, anti-miqrant ruhunda olanların da dəstəyini alması üçün populist fikirlər səsləndirdi, Azərbaycan dövlətinə və rəhbərliyinə münasibətdə qərəzli, qəhqiramiz ifadələr dedi. Birincisi, bu, Jirinovskinin böyük qəbahəti oldu, yəqin ki, buna görə siyasi cəzasını alacaq. İkincisi, Jirinovskinin Azərbaycana münasibətdə ifadə etdiyi təhqiramiz fikirlər ilk dəfə deyildir. Hər kəs də bilir ki, Jirinovski hər seçki öncəsi tərəfdarlarını, millətçiləri öz mövqeyində görmək üçün Türkiyəyə, Qazaxıstana, Özbəkistana, Qırğızıstana, hətta, arada Avropa ölkələrinə, ABŞ-a da "hücumlar" edir. Bütün bunları da əlbəttə ki, siyasi maraqlarına görə həyata keçirir. Şübhə yoxdur ki, seçkilər yaxınlaşdıqca, bu cür təhqirlər, hücumlar da artacaq...

Ümumən Jirinovski ilə bağlı vəziyyət aydındır. Onun məsələsi gec-tez həll olunacaq. Bəs, trolbaşı Əli Kərimliyə, onun qondarma dəstəsinə, qondarma alim Cəmil Həsənliyə nə olub? Sosial şəbəkələrdə vahid mərkəzdən verilmiş tezis üzrə statuslar yazıb, şadyanalıq edənlər heç Qarabağ işğaldan azad olunanda bu qədər şənlənməmişdilər. Əcaba, niyə və nə üçün sevinirlər? Məgər bu cür vəziyyətlərdə milli maraqların müdafiəsi naminə bütün siyasi-ictimai qüvvələr birləşməməlidirmi? Jirinovski təlxəkliyindən sui-istifadə edib hakimiyyətə hücumlar etmək milli xəyanət deyilmi? Xüsusilə də, məsələni koorporativ mənafe baxımından dəyərləndirməklə, Azərbaycanı Avropa və ABŞ-la üz-üzə qoymağa cəhdlər etmək üçün fürsətdən istifadə də Vətənə xainlik deyilmi? Hətta, Jirinovskinin sərsəmləməsindən dərhal sonra 44 günlük Vətən müharibəsindəki qələbədən dolayı "Dəmir yumruq" zəfərinin, Qarabağın, milli dövlətçiliyimizin hədəfə götürülməsi, çıxış yolunun isə Avropa İttifaqı ilə müqavilə imzalamaqdan keçdiyinin deyilməsi Qərbin də trolluğunu etmək demək deyilmi? Jirinovski kimi Tolstoy, Mironov təki populistlər də daim Azərbaycana hücumlar ediblər. Məgər bunun hansısa siyasi-ictimai, yaxud sosial-iqtisadi təsiri olubmu? Onlar daxili auditoriyaları üçün işlədiyi bir zamanda bəs, trolbaşı Əli Kərimlinin, qondarma dəstəsinin, Cəmil Həsənlinin funksiyası nədən ibarətdir? Bu trol qrupları kimlərin sifarişlərini yerinə yetirirlər? Birbaşa Prezident İlham Əliyevin, Qarabağ zəfərimizin, milli dövlətçiliyimizin hədəfə alınması burada erməni lobbisinin dəst-xəttinin olmasını isbatlamırmı? Ola bilməzmi ki, Rusiyada keçiriləcək parlament seçkilərində Jirinovskinin maliyyəsi erməni lobbisindən olsun və trolbaşı Əli Kərimli də, qondarma dəstəsi də, Cəmil Həsənli də bu süfrənin qırıntıları ilə qidalansın? Bu səbəbdən də, trolbaşı Əli Kərimlinin, qondarma dəstəsinin, Cəmil Həsənlinin Jirinovskinin sərsəmləməsinin Azərbaycan ictimai rəyində təhqir, qərəz kimi deyil, sırf geosiyasi savaş, Putinin sifarişi kimi qəbul edilməsinə nail olmaq üçün çalışdığı da göz önündə deyilmi? Onlarla yazılmış statusda nə üçün bircə dəfə də olsun Əli Kərimlinin, Cəmil Həsənlinin Jirinovskinin təhqirlərinə adekvat cavab ifadələri yer almayıb? Belə çıxır ki, Jirinovski indi onların ikonasına çevrilib? Yoxsa, onlar hələ də "kim Azərbaycan dövlətini, xalqını, hakimiyyətini təhqir edir, hədəfə alır, demək bizim dostumuzdur" prinsipi ilə yaşayırlar?

Bir sözlə, görünür ki, trolbaşı Əli Kərimli, onun qondarma dəstəsi, qondarma alim Cəmil Həsənli vahid mərkəzdən gələn tezislər əsasında bu dəfə də hakimiyyəti hədəfə aldılar, milli maraqları müdafiə etmədilər, dövlətə və xalqa növbəti dəfə xəyanət etdilər. Sizcə, Jirinovskinin qarşısında deyil, yanında yer aldıqları üçün Əli Kərimliyə, Cəmil Həsənliyə hansı adı vermək olar?

***Ramil Vəlibəyov***

# Qadınlar və kişilər niyə xəyanət etməkdə maraqlıdır? - SƏN DEMƏ...

**"Təəssüflər olsun ki, mövzumuz bizi, ümumilikdə cəmiyyəti incidəcək, xanımları, hətta bəylərin özünü də gözü yaşlı qoyacaq. Səbəb nə olursa-olsun, xəyanət qəbuledilməzdir. Nəyə görə insanlar xəyanəti qəbul etmirlər? İnsanın ən yaxın, ən doğma insanı dünyadan köçdüyü zaman hansı psixi haləti pozulursa, xəyanətdə də buna oxşar hal olur. Torpağın üzü soyuqdur, bir müddət sonra yadından çıxır. Sadəcə yaddan çıxmış, sanki unutmuş kimi digər insanlara göstərə bilər. Amma insanın canından, qanından olan insanlar təbiidir ki, bunu unutmurlar, - mən doğmamı itirdim. Xəyanət də məhz bu cürdür. Nə olursa-olsun, xəyanətə uğrayan insan bu yaşadığını unuda bilmir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.**



Onun sözlərinə görə, burada kişi və ya qadın faktorunun heç bir fərqi yoxdur: "Yəni burada artıq sözün kökü var ki, xəyanət. Xəyanət sevgi münasibətlərinin ən əsas düşmənidir. Bəzən insanlar düşünürlər, hətta müraciət edən insanların içərisində də olur, deyir ki, "Aytən xanım, mənə elə gəlir ki, xəyanət bunların genində var. Bunun atası da belə şorgöz insan olub" və yaxud da deyirlər ki, "anası gəzən ağacı balası budaq-budaq gəzər. Onlarda elə anası da o zamanlar atasına xəyanət edib". Məsələn deyək ki, hətta ikinci ailə qurmağı belə xəyanətlə birləşdirib danışan insanlar olur. Son günlər isə xəyanətin həddindən artıq çox olması ilə bağlı bir çox araşdırmalar olub. Bu araşdırmaların içərisində nəticədə ümumi müddəalar müəyyənləşib ki, onlara, əsasən, 90 faiz doğru nəticələr əldə edə bilməyimizdir. Bu 90 faiz nəticəni necə əldə edə bilirik? Bunun üçün sadəcə olaraq, cütlüyün birinin davranışları, hərəkətləri, baxışları, yəni bunu əgər biz sadalasaq, bəlkə də on beş, on altı, on yeddi bəzi həmin vaxtın xüsusiyyətlərini göstərə bilərik ki, bu insan hansı səbəbdən gedib xəyanət etdi?".

Psixoloq sözlərinə belə davam edib: "Təcrübəmizdə olan belə bir məqam var. Xanım deyir ki, kişinin diqqətsiz olması, son günlər artıq evə gec gəlməsi, hər axşam işdən sonra toplantısı var deyib getməsi, işimizi gecə növbəsinə keçiriblər deməsi, onun gecə-gündüz onlayn olması məndə bir sıra şübhələr yaratdı". İndi müasir zamandır və müasir zamanda qadınlar bunu çox rahatlıqla sezə bilirlər. Qadınlar deməyək, ümumi insan faktoru deyək ki, istər qadın, istər kişi artıq bunu rahatlıqla sezə bilir".



"Biz qadın tərəfdən baxsaq, qadınlar çox həssasdırlar. Qadın məhz onun həyat yoldaşının hansı qadına daha çox marağı varsa, gedib o qadının üzərində dayanacaq. Çünki qadınların hissiyatları onları heç zaman aldatmır. Kişilərdə isə tamamilə fərqlidir. Kişilərdə də bu, fərqlidir. Bir baxışa, bir parfümün iyinin ona xoş gəlməsi və s. Amma kişinin beynində bir tək düşüncəsi var ki, o əgər mənə qarşı artıq davamlı şəkildə xəyanət edirsə, deməli, hansısa bir cinsi doyumsuzluq var ki, bu ona doğru addım atır. Burada isə təbiidir ki, fərdlər tamamilə fərqlidir. Bioloji və sosial varlıq olduqlarına görə arzu-istəklər də tamamilə başqa cürdür. Siqnalların çatması var. Biri var ki, donjuanizm sindromunda olacaq bir bəy olsun. Artıq ona cinsi istəyin siqnalları çatmır. Çünki insan donjuanizm sindromundan əziyyət çəkir. Bəzən də onlar həddindən artıq çox mehriban davranışlar göstərirlər ki, ətrafındakı xanımlar bunu sezə bilməsinlər. Amma təbiidir ki, bir balaca ağıllı insanlar bunu rahatlıqla sezə bilirlər. Səbəblər uzun illər bundan öncə baş verəcək serialların çox olması, seriallarda ailəsini qoydu getdi, sevmir, onunla xoşbəxt deyil və kulminasiyada bizim alqışlarımızdır. Bu gün budur, bizi xəyanətə doğru aparan addım. İnsan həyata bir dəfə gəlib və bu bəraətləri qazandırmağımız bizi bugünkü gün daha çox xəyanətlə üz-üzə qoyub".



Məsələ ilə bağlı sosial ekspert Rövşən Rəsulov da münasibət bildirib: "Xəyanət heç bir halda qəbul edilməyən haldır və bəşəri faktor nəzəriyyəsində o müxtəlif cür olur. Xüsusilə, şəxslər, daha dəqiq desək, kişi ilə qadın arasında yaranan sevginin sonradan qarşılıqlı xəyanətə çevrilməsi özündə bir sıra xüsusiyyətləri əks etdirir - vicdansızlıq, riyakarlıq və s.".

"İnanmıram ki, insanlar sevgisiz yaşasın, amma xəyanəti də sevgisizliklə bağlamağın tərəfdarı deyiləm. Xəyanət qarşılıqlı anlaşıma olmadıqda, fikirlər üst-üstə düşmədikdə də yarana bilər. Misal üçün, həm kişi, həm də onun yarısı hesab edilən qadın bir-birlərinə bağlıdırlar və onları bağlayan müxtəlif səbəblər, vasitələr mövcuddur, uşaqları, ailələri və s. Lakin adi bir narazılıq - hansı ki, onu səbrlə, təmkinlə aradan qaldırmaq mümkündür, dönüb-olur qarşısıalınmaz problemə və bu da təəssüf ki, xəyanətlə nəticələnir".

"Xəyanətin daha bir səbəbi şiddətli keçimsizlik, imkansızlıqdan da yaranır. Sosial mühitimizdə bu səbəbdən də xəyanətlərin baş alıbgetdiyini görə bilərik. Açığını desək, əgər qarşılıqlı sevgi, səmimiyyət varsa, belə halların yaranması ümumiyyətlə, qeyri-mümkün olar. Ancaq bu amillər olmazsa, xəyanət öz sözünü təəssüf ki, deyir.

Deməzdim ki, sosiumda xəyanətkarlıq faktoru hər hansı bir "tələbə" çevrilib. İnsanlar öz ağılları, düşüncələri ilə atdıqları hər addımlarını min ölçüb, bir biçməlidirlər. Bəzən daxillərindəki yanlış hisslərə qapılan insanlar ani bir səhv üzündən bütöv bir ailələrin dağılmasına səbəb olurlar. Halbuki, bu, baş verməyə də bilərdi - ağılla düşünülsəydi, "mən nə edirəm?" sualı verilsəydi. Bir incə məqamla böyük fəlakətin qarşısı alınardı. Təsəvvür edin, adi bir xəyanət üzündən dağılan ailələr sonradan hansı girdablara doğru yuvarlanırlar, insanların həyatları üzərindən çalın-çarpaz xətlər çəkilir. Üstəlik, belə ailələrin uşaqları da varsa, körpələrin nə qədər zərbələr altında qaldıqlarını düşünmək belə çox çətindir. Onların gələcəkləri məhv olur, müqəddəratları sual altında qalır".

"Etiraf edək ki, müasir dövrümüzdə təmiz sevgi məfhumu demək olar ki, itirilmək üzrədir və əvvəlki zamanlarla müqayisədə yox səviyyəsindədir. Biz tarixən görümüşük ki, babalarımız, nənələrimiz bir-birlərinə qarşı necə pak, ümdə sevgi bəsləyiblər, hətta onlar haqqında dastanlar, hekayələr, romanlar yazılıb. Ancaq indi hər şey "beşgünlük dünya" anlamında "beşdəqiqəlikdir". Bu baxımdan, paralel olaraq, milli-mənəvi xüsusiyyətlərimizi itirməməklə, milli ailə nümunəsi deyilən vacib məqamı hər zaman diqqətimizdə saxlamalı, onu gələcək nəsillərimizə təlqin etməliyik. Belə olarsa, nə xəyanət olar, nə də riyakarlıq. Düşünürəm ki, hər şey öz əlimizdədir, biz şüurumuzla, vicdanımızla hərəkət etməli, hətta digər insanların xəyanətlərini görərkən, onun qarşısını insani vəzifə olaraq almalıyıq".

***Ayşən Vəli***

# Aleksey Fenenko: Moskva Paşinyanı heç bir halda dəstəkləməyəcək



- Bu gün Ermənistan-Azərbaycan sərhədində kəskinləşmələr tək bir səbəbdən baş verir. Seçkiləri qazandıqdan sonra Paşinyan münaqişənin onun üçün həll olunmadığını erməni cəmiyyətinə nümayiş etdirməlidir. Ermənistan cəmiyyətinə qisas almaq ümidi olduğunu göstərmək istəyir və bu, Paşinyanın özü ilə bağlıdır. Bu gün o, Ermənistan cəmiyyətinə elə bir mesaj verir ki, 2-ci Qarabağ müharibəsində erməni mövqelərinin təslim olması guya onun tərəfindən sadəcə incə, hiyləgər və taktiki bir hərəkət idi. Əslində, Paşinyan seçkilərdən sonra bir-birinə zidd iki müstəsna öhdəlik götürdü. Onun Rusiya və Azərbaycana verdiyi ilk öhdəlik sülhü qoruyacağıdır. İkincisi, cəmiyyətinə bunun müvəqqəti bir barışıq olduğunu söylədi. Və Qərbin köməyi ilə bu bölgələri geri ala biləcəyini göstərmək istəyir. İndi hər kəsə nəsə etdiyini göstərir və məsələnin tamamilə bağlandığını düşünmür. Bu, onun mesajıdır.

***- Rusiya və Fransa bu mesaja necə reaksiya verə bilər?***

- Düşünürəm ki, Rusiyadan yalnız bir cavab ola bilər. Razılaşmanı yerinə yetirmək üçün Paşinyana təzyiq göstərmək. Rusiyanın başqa reaksiyası olmayacaq. Amma Fransa ona təzyiq göstərməyəcək. Çünki NATO üzvü olaraq Fransa üçün Paşinyanın Rusiya əleyhinə çıxışları çox faydalıdır.

***- Ermənistan-Azərbaycan sərhədində gərginlik səngiməsə, hadisələrin inkişafı ssenarisi necə ola bilər?***

- Düşünürəm ki, yaxın gələcəkdə Ermənistan artıq hər sadə səbəbdən atəş açmağa davam etməyəcək və gərginlik yaratmayacaq - Paşinyan yaxşı başa düşür ki, yeni hərbi münaqişə başlasa, bu, mütləq Ermənistanın xeyrinə bitməyəcək. Mövcud hərbi potensial və qüvvələr balansı ilə bir münaqişənin baş verməsinin mənası yoxdur. Çünki bu, Ermənistan üçün açıq və zəmanətli bir məğlubiyyət və Qarabağdakı mövqelərinin qalıqlarının da itirilməsi olacaq.

***- Niyə Paşinyan Azərbaycan üçün artıq bağlı olan Qarabağın statusu məsələsini yenə də gündəmə gətirir?***

- Bir şey etdiyini göstərmək üçün. Beləliklə, deyir: məni sülhün qarantı seçdiniz, buna görə də bir növ sülh prosesinə başlamağa hazıram. Ancaq hər şeyi sonsuz bürokratik dolaşıqlıqda boğmağa çalışacaq. Əlbəttə ki, bununla 9 Noyabr 2020 -ci ildə bağlanmış müqaviləni yenidən formatlaşdırmağa çalışacağını düşünürük. Ancaq sual yaranır- nəyi yenidən formatlaşdırmaq lazımdır? Onda Qarabağın son parçası var. Prosesi uzadarsa, onu da itirmək riski böyükdür. Bilmirəm, mövcud konvensiyanı necə yenidən format etmək olar?

***- Vəziyyəti dondurmağa çalışaraq ...***

- Əlbəttə ki, statusu dondurmağa çalışacaq. Və hətta bu prosesi bir neçə illik müzakirələrə qədər uzada bilər. Və bütün bunları etməyə çalışacaq. Ancaq sual budur ki, mövcud vəziyyət ona bunu etməyə nə dərəcədə imkan verəcək. Çünki bu gün Moskva anti-Rusiya mövqeyindən açıq danışan Paşinyanı dəstəkləmək bir yana, baş verəcək yeni qarşıdurmaya qətiyyən müdaxilə etməyəcək.

*Tərcümə - Elçin Bayramlı*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

## “Paşinyan Baş nazir kreslosunda rahat oturmayacaq”



“Ermənistanda 44 günlük müharibədən sonra məğlubiyyət fonunda baş vermiş siyasi böhrandan sonra keçirilən təkrar seçkilərdə yenidən qələbə qazanan Paşinyan Baş nazir postuna parlament tərəfindən təsdiqləndi”. Bunu SİA-ya açıqlamasında Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi yanında ictimai Şuranın sədri Anar Xəlilov deyib.

Onun sözlərinə görə, hakimiyyətə küçədən gələn Paşinyan Ermənistanın siyasi kursunu Qərbə tərəf çevirərək Rusiyadan uzaqlaşmağa başladı: “Düzdür verdiyi açıqlamalarda bunu bildirməsə də atdığı siyasi addımlarda bu özünü qabarıq surətdə bildirirdi. Qarabağda ağır məğlubiyyətə uğrayan Ermənistan müharibə dönəmində də əsas olaraq Qərb dövlətlərindən kömək istəyir onlara yalvarırdı. Rusiyanın yaratdığı KTMT-nin üzvü olan Ermənistan yalnız təxribat, şər, böhtan ataraq ondan Azərbaycana qarşı yardım istəyirdi. Rusiya prezidentinin məlum açıqlamasından sonra “Qarabağ Azərbaycan ərazisidir” Ermənistan əsas himayəçisi Fransanın ətəyindən açıq-aşkar tutmağa başladı. Fransa prezidentinin bir neçə sərsəm açıqlamasından başqa Qərbin Ermənistana hansısa ciddi bir dəstəyi görsənmədi. Yalnız ermənipərəst KİV-lər istisna olmaqla. Azərbaycan hökumətinin apardığı xarici siyasət və haqlı mövqeyimizin beynəlxalq aləmə cənab Prezident tərəfindən yüksək peşəkarlıqla çatdırılması Ermənistanın apardığı ikiüzlü siyasətini məhv etdi. Paşinyan hökuməti bütün cəbhələrdə məğlub oldu. Lakin buna baxmayaraq Ermənistan cəmiyyəti yenə də Paşinyan hökumətinə etimad göstərdi. Paşinyan yenidən baş nazir postuna seçildi. Bunun səbəbi Ermənistanın məğlubiyyət səbəbinin Paşinyan tərəfindən xalqa günahkarın ondan əvvəlki Koçaryan-Sarkisyan hökumətinin olduğunu izah etməsi və müharibədən sonra yaranan anti-Rusiya mühitin formalaşmasına oldu”.

A.Xəlilov bildirdi ki, bundan sonra Paşinyan daha açıq şəkildə Qərbə tərəf siyasi kurs götürəcək: “Ermənistanın əsas müxalifətini rusiyayönümlü olması isə qızğın siyasi mübarizənin gedəcəyini proqnozlaşdırmağa əsas verir. Paşinyanın son vaxtlar 10 noyabr Aktının müddəalarından imtina etmə xarakterli çıxışları da Azərbaycanı daha radikal addımlar atmağa vadar edə bilər. Belə olduğu təqdirdə Paşinyanın baş nazir kreslosunda heç də rahat oturması görünmür. Onun Qərb qarşısında götürdüyü öhdəlikləri də nəzərə alsaq Ermənistanın tezliklə yenidən siyasi böhran qarşısında qalacağını gözləmək olar. Ümumiyyətlə hesab edirəm ki, Ermənistanın indiki durumda ən yaxşı siyasi addımı Azərbaycanla sülh müqaviləsini imzalamaq olardı. Ermənistan hökuməti bu addımla gələcəkdə onsuz da baş verəcək siyasi böhran zamanı iki cəbhədə döyüşməli olmayacaq. Qərb nə qədər də Ermənistana maliyyə yardımları etsə də çökmüş iqtisadiyyatı qaldırmağa illər lazımdı. Bunun üçün isə Ermənistana stabillik vacibdir. Bu olmadıqda heç bir islahat aparmaq mümkün olmayacaqdır. Ermənistan hökuməti bunu düşünməli sülh müqaviləsi imzalamalı, akta uyğun olaraq komunikasiya xətlərini açmalı, iqtisadi əlaqələri qurmalıdır. Ermənistanın gələcəyi bundan asılıdır. Paşinyan hökuməti buna getməsə nə qədər də Qərbin himayəsi olsa da bu coğrafi ərazidə onun sakit gələcəyi yoxdur. Bugünkü müasir dünyada əsas göstərici iqtisadi faktorlardır. Bu olmasa mövcud dövlətlərin gələcəyi sual altında olacaqdır. Azərbaycan uzun illər atəşkəsi saxlamaqla stabil mühit yaradaraq iqtisadiyyatını gücləndirdi, ordu qurdu, müasir güclü dövlət yaratdı. Bunun memarı Ümummilli Lider Heydər Əliyev idi. Bu gün torpaqlarımızın azad olunması bu siyasətin bariz nümunəsidir. Ermənistan cəmiyyəti buna fikir verməli nəticə çıxarmalıdır. Revanş haqqında yox öz gələcəklərini düşünməlidirlər”.

*Gülyana*

## Erməniləri geri qaytarmaq üçün şirnikləşdirici plan



Ermənistanın iqtisadiyyat naziri olmağa məqam gözləyən Vahan Kerobyan ötən gün Ermənistandakı Mantaşev Sahibkarlar Birliyinin üzvləri ilə görüşdə erməni iş adamlarına yeni hökumət proqramının iqtisadi hissəsini təqdim edib. Belə ki, Kerobyan ermənilərin yenicə təzələnmiş hökumətinin qarşıdakı 5 il üçün iqtisadi fəaliyyətin əsas vektorlar və prioritetlərindən danışıb.

Təbii ki, ermənilərə Avropadan əta edilən və indinin özündə də onlara xəyali görünən 2.6 milyard avronun müəyyən hissəsi harasa xərclənməlidir axı... Beləliklə, erməni rəsmiləri ilə yanaşı, erməni iqtisadiyyat naziri əvəzi Kerobyan da hələ ki, Avropanın onlar üçün ayırdığı 2.6 milyard avronun hissə-hissə Ermənistna gətirilməsini gözləyirlər.

Elə ki, vəsait ölkəyə gətirildi, bu zaman Ermənistanda akademik şəhərcik salınacaq, elmə ayrılan vəsait 4 dəfə artırılacaq, 500 məktəbəqədər müəssisə və 300 məktəb tikiləcək və s. və i. Hələ bundan əlavə, ölkədə 2600 km yol, 15 su anbarı, 3 sənaye parkının inşası da planlaşdırılır.

Belə görünür ki, Kerobyanın Ermənistanın gələcək inkişafı ilə bağlı proqramı ilə heç rusların 1917-ci ildə Rusiyasının elektrikləşdirilməsi üçün hazırlanan GOELRO dövlət proqramı da müqayisə edilə bilməz. Doğrudan da, təqdirəlayiqdir. Tərifləməyə dəyərdi, amma ki...

...Məsələ bundadır ki, bəzi ermənilər yenə də Ermənistan iqtisadiyyatının inkişafı ilə bağlı Paşinyan komandanın fikirlərini ciddiyə almaq istəmirlər. Onlar hətta Kerobyanın perspektivli bir sənəd kimi təqdim etdiyi dövlət poqramını təkcə qeyri -sabit deyil, həm də xəyali hesab edirlər. Niyə? Ermənilər üçün əsas tapmağa nə var ki...

Məsələn, deyirlər ki, hökumət 500 məktəbəqədər müəssisə və 300 yeni məktəb tikməyi planlaşdırır. Soruşurlar ki, kimin üçün? Ardınca da deyirlər ki, bu gün Ermənistanda 84 min yeri olan 910 məktəbəqədər müəssisə, 380 min şagirdi olan 1353 məktəb mövcuddur ki, bunların da əksəriyyəti oxudub tərbiyələndirməyə uşaq gəzirlər. Belə olan halda, yeni tikilən 500 məktəbəqədər müəssisə və ya 300 məktəb binaları kimlər üçün tikilir?

...Bəzi məlumatlara görə, təkcə bu ilin ilk 6 ayında 80 mindən artıq erməni əbədi olaraq Ermənistandan qaçıb ki, bunların da artıq 20 min nəfəri Rusiya vətəndaşlığını alıblar. Məsələ bundadır ki, erməni köçü bu gün də davam edir. Yəni, ermənilərin dediyinə görə, əhalinin axın meyilləri dəhşətlidir. Lakin erməni hökuməti Ermənistandan gedənləri geri qaytarmaq üçün yeni şirnikləşdirici planlar hazırlayıblar ki, guya bu plan vaxtilə Serjikin “inkubator üsulundan” istifadə etməklə Ermənistandakı ermənilərin sayının 5 milyona çatdıracağı barədə elan etdiyi plandan daha effektlidir.

Amma maraqlıdır ki, erməni hökumətinin bu planının hansısa bir effekt və ya ...nəsə verəcəyinə hələ Ermənistandan imkan tapıb qaça bilməyənlərin heç biri inanmır.

Ona görə də, hazırda ermənilər Kerobyan tərəfindən elan edilən hökumət proqramı onlara elə də ciddi görünmür. Ermənilərin dediyinə görə, vaxtilə iqtisadi inqilab nağılları ilə hakimiyyətə gələn “məxməri məmurlar” indi də əldə etdikləri yenilənmiş “polad mandat”la eyni inanılmaz rolda qalmağa davam edirlər.

*Ağasəf Babayev*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# Səs

4 avqust

QARABAĞ AZƏRBAYCANDIR!

# Rafiq Hüseynov erməniyə qalib gəldi, bürünc medal qazandı!



Azərbaycanın yunan-Roma güləşçisi Rafiq Hüseynov (77 kq.) bu gün Tokio-2020-də təsəlliverici görüşə çıxıb. Qol.az xəbər verir ki, o, Tunis təmsilçisi Lamyed Maafi ilə qarşılaşıb və 11:1 hesablı qələbə qazanıb. Beləliklə, Hüseynov bürünc medal uğrunda görüşdə Ermənistan təmsilçisi Karapet Çalyanla üz-üzə gəlib. İdmançımız qalib gələrək (4:1) bürünc müdal qazanıb. Bu, Azərbaycanın Tokio-2020-də üçüncü bürünc medalı, güləşçilərimizin isə birinci medalı olub.

# Rəsul Çunayev: "İdmanda hər an hər şey ola bilər"



"Oyunlar hələ davam edir, buna görə də, məncə, tez fikir bildirmək düzgün deyil". Bu sözləri SİA-ya eksklüziv açıqlamasında "Davam" Gənclər Hərəkatının İdarə Heyətinin üzvü, milli güləşçi Rəsul Çunayev deyib.

Onun sözlərinə görə, qarşıda yarışacaq və medal əldə edəcəyinə inandığım idmançılarımız var: "Proqnoz verməyi sevmirəm, idmanda hər an hər şey ola bilər, amma yaxın günlərdə gözəl nəticələr eşitməyə ümid edirəm. Ümumiyyətlə isə düşünürəm ki, bu məğlubiyyətlərin səbəbi pandemiyanın yaratdığı vəziyyətdir. Belə bir vəziyyətdə sağlamlığımızı qorumaq hər şeydən vacib olmaqla yanaşı, müxtəlif məşq zallarından istifadə etmək çətin hal almışdı. Bu da hal-hazırda oyunlara öz təsirini göstərir. Buna görə ruhdan düşməməliyik, çünki biz ən böyük qələbəmizi Qarabağımızı işğaldan azad etməklə qazanmışıq".

Son olaraq demək istəyirəm ki, ümidimizi itirməyək, bu məğlubiyyətlər növbəti oyunlar üçün əldə etdiyimiz dərslərdir. Növbəti Olimpiya oyunlarında bizim idmançılarımızın bu dərslərlə daha uğurlu nəticələr edəcəyinə inanıram.

*Ziya Hikmətoğlu*

# Təmtəraqlı qəbir yeri düzəltdirmək günahdırmı?

"Ümumiyyətlə, qəbiristanlıq mövzusuna toxunanda dünyada bu fakt özünü göstərir. İstər Amerikada, istər Avropa ölkələrində sadə və dəbdəbəli qəbiristanlıqlar var. Həmçinin, dəbdəbəli qəbir daşları var və bu dünyanın hər yerində mövcuddur. Amerikada, Kaliforniyada bu adətdir və onlar dindən asılı deyil. İnsanlar ənənəvi olaraq qəbiristanlıqlara müxtəlif formada yanaşırlar və yalnız İslam dinində insan sadə bir məzarda dəfn olunmalıdır. Ona sadə bir nişanə qoyulmalıdır ki, bilinsin ki, burda filankəs oğlu filankəs yatır". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev deyib.



Onun sözlərinə görə, əzəmətli baş daşlarına sadə insanların ehtiyacı yoxdur: "Lakin, istisna insanlar var. Tarixi şəxsiyyətlərə müəyyən qeyri-adi nişanələr, büstlər və yaxud da ki, qəbir daşları qoyula bilər. Bu da istisnadır. Bunlar tarixi şəxsiyyətlərdir və yaxud onlar şəhid, övliyala, imamlardır. Məsələn, böyük şəxsiyyətlər var ki, onlar üçün böyük məzarlar, məqbərələr tikilib və insanlar oranı ziyarət edirlər. Şəhidlər xiyabanı var ki, orada şəhidlər məscidi tikilib. Xiyabanda da şəhidlərimizə məxsus xüsusi qəbir daşları qoyulub. Amma İslam dinində rəhmətə gedən insana sadə məzar qazılmalı, İslam qanununa uyğun formada dəfn olunmalı, ona sadə bir nişanə qoyulmalı və övladları özündən sonra bilməlidirlər ki, bizim burada bir atamız, babamız, bir doğma insanımız yatır. Yəni, qeyri-adi məzarları dəbdəbəli etmək və oranı zinətləndirməyə ehtiyac yoxdur. Hətta İslam dinində köhnə məzarları təzələmək bəyənilmir. İslam dinində o savab əməl hesab olunmur. Dünyasını dəyişən insan üçün dua etmək, onun ruhunu yad etmək lazımdır. Onun ruhuna Quran oxumaq, hədiyyə göndərmək olar. Onun adı ilə bağlı nə yaxşı işlər bilirsiniz onu edin. Bu islam dinində bəyənilən əməllərdir".

Hacı Fuad Nurullayev sözlərinə belə davam edib: "Amma insanların çoxu bu deyilənlərə əməl etmir. Qəbiristanlıq və qəbiristanlıq torpaqları icra hakimiyyətinin, bələdiyyələrin ixtiyarındadır. Səhv etmirəmsə bir neçə min müqabilində orada yerləri insan pul verib ala bilir. Dünyada da belə şeylər var. Tək Azərbaycanda deyil, Avropada, Qərbdə mövcuddur. Amerikanın özündə, Avropanın özündə insanlar vəfatla bağlı sığorta olunurlar və onlar öz məvaciblərindən büroya pul ödəyirlər. İnsan rəhmətə gedəndə onun yuyulması, dəfn olunması kimi bütün xərclərini büro öz üstünə götürür və onu həll edir. Hətta Amerikanın özündə yeddi min dollardan on min dollar müqabilində bir insanın dəfni ilə bağlı pul götürə bilir. Dünyada bu fakt var və insanlar onu qayda qanuna qoyublar. Amma İslam dinimizdə nə qədər sadə formada insan dəfn olunsa, bir o qədər onun savabı var və qəbiristanlıq torpaqları dinimizdə rəhmətə gedənlərin adına vəqf olunur. Yəni, hədiyyə olunmalı, ərazidə kim rəhmətə getdisə ona bir məzar ayrılmalı, o orda təmənnasız dəfn olunmalıdır. Xırda xərclər ki, olur orada bəzən görürsən, qəbrin qazılmasına fəhlə gəlir onu qazır, Bakı ərazisində qumsal torpağıdır ora, içəriyə bir neçə daş hörürlər, o daş 20 - 30 daş gedirsə, onun məbləği ödənilir və cüzi xərclər çəkilə bilər. Rəhmətliyin də varisləri halallaşırlar və başqa bir xərclərin qəbiristanlıqlara çəkilməsi islam dinində savab deyil. Bunu etməmək yaxşıdır".

*Ayşən Vəli*

# Məşhur modeldən çağırış

Məşhur rusiyalı model Natalia Vodianova Türkiyənin hər yerində davam edən meşə yanğınlarına biganə qalmayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Çılpaq Ürək Vəqfinə gəlir təmin etmək üçün keçən həftə Bodrumda bir qala gecəsi təşkil edən və dünyanın jet təyyarəsini Bodrumda bir araya gətirən Vodianova, 2,9 milyonu aşan "İnstagram" hesabından Türkiyəyə kömək etməyə çağırıb. TEMA Vəqfindən paylaşılan açıqlamasında Natalia Vodianova bunları deyib: "Bir çox təbii meşə qoruğunun yaşadığı gözəl Türk rivierasının yandığını görmək mənim ürəyimi ağrıdır. Mənə qoşulun və birlikdə ağac əkmək və daha parlaq bir gələcək qurmaq üçün TEMA Vəqfinə ianə edin".



*Turqay Musayev*



# 43 dərəcəyədək isti olacaq: Temperatur yüksəlir

Havanın temperaturu yüskələcək. Hidrometeoroloji Proqnozlar Bürosundan SİA-ya verilən məlumata görə, avqustun 4-8-də hava şəraitinin isti keçəcəyi, havanın maksimal temperaturunun Bakıda və Abşeron yarımadasında 35-39 °, bəzi yerlərdə 40-41° isti, Respublikanın rayonlarında 35-40 ° isti, Naxçıvan MR-nın və aran rayonlarının bəzi yerlərində 42-43°-dək yüksələcəyi gözlənilir.

## Başsağlığı

Səs Media Qrupunun kollektivi adından Bəhruz Quliyev Alqış Həsənoğluna anası

**Səadət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**